GÜNDOĞAR

5 avqust 2014-cü il № 25-26-27 (6535) İCTİMAİ-SİYASİ QƏZET Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

PREZİDENT İLHAM ƏLİYEVİN İŞ GÜNLƏRİ HƏMİŞƏ QAYNARDIR

Rəhbərlik etdiyi Azərbaycanı daim irəli aparmağa çalışan, onun təhlükəsizliyi üçün əlindən gələni əsirgəməyən, xalqını, millətini xoşbəxt görmək arzusu ilə yaşayan Prezident İlham Əliyevin iş günləri həmişə qaynardır. Dövlət və hökumət başçılarını, beynəlxalq qurumların rəhbərlərini qəbul edərək onlarla danışıqlar aparır, mühüm əhəmiyyət kəsb edən tədbirlərdə iştirak edir, ölkə həyatının bu və ya digər sahələrini tənzimləyən, nizamlayan fərman və sərəncamlar imzalayır.

Bunlar il boyu davam edən gündəlik proseslərdir, dövlət başçısının hadisələrlə dolu iş günləridir. Bəzən bu qaynarlıq daha da artır. Prezident İlham Əliyev bir-birinin ardınca çox mühüm tədbirlərin, görüş və qəbulların iştirakçısı olur.

İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Respublikasına işgüzar səfərə getmişdir. Burada Avropa Şurası Parlament Assambleyasının sədri xanım Ann Brasak ilə, Avropa Şurasının baş katibi Torböri Yaqlandla, Avropa Məhkəməsinin sədri Din Şalman və digər rəsmi şəxslərlə görüşlər keçirib. Prezident İlham Əliyev iyunun 24-də Avropa Şurası Parlament Assambleyasında nitq söyləmişdir. Dövlət başçısının nitqi böyük maraqla dinlənilmişdir.

İyunun 26-da Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Silahlı Qüvvələrin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiəl Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimində iştirak edərək təlimin əsas mərhələsini izləmişdir. Ordumuzun qüdrəti bütün Azərbaycan xalqı kimi dövlətimizin başçısında da böyük qürur hissi doğurmuşdur.

İyunun 28-də Bakıda ATƏT Parlament Assambleyasının "Helsinki+40: Hər kəs üçün təhlükəsizliyə doğru" devizi altında iyirmi üçüncü illik sessiyasının plenar iclasının açılış mərasimi olmuşdur. Mərasimdə iştirak edən Prezident İlham Əliyevin çıxışı böyük maraq doğurmuşdur. Həmin gün dövlətimizin başçısının sessiyada iştirak edən ali şəxslərlə görüşü, dünyanın aparıcı informasiya agentliklərinə verdiyi müsahibələr də yaddaqalan olmuşdur.

Son illər Azərbaycan diplomatiyasının uğurlarında xarici diaspor təşkilatlarının da özlərinə məxsus rolu və yeri var. Bu təşkilatların inkişaf etdirilməsi, daha da təkmilləşdirilməsi dövlət başçısının daim diqqət mərkəzindədir. İyulun 7-də Xarici İşlər Nazirliyində ölkənin diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsi də bununla bağlı idi. Müşavirədə iştirak edən Prezident İlham Əliyev çıxış edərək müasir dövrdə diplomatların qarşısında duran təxirəsalınmaz vəzifələrdən danışmış, onlara tapşırıq və tövsiyələrini vermişdir.

Bir gün sonra — iyulun 8-də isə dövlətimizin başçısı NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturarı qəbul etmişdir.

İtaliyanın Baş naziri Matteo Renzi ilə görüş - 14 iyul 2014-cü il

İyulun 9-da müqəddəs ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərlərilə keçirilən görüş də ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsinə xidmət etmişdir. Səfirlər və diplomatlar görüşdə iştirak edən Prezident İlham Əliyevin çıxışını böyük maraqla dinləmişlər.

Ölkəmizin başçısının sədrliyi ilə Nazirlər Kabinetinin sosial-iqtisadi inkişafın yekunları ilə bağlı iclaslarının keçirilməsi artıq ölkəmizdə ənənə halını almışdır. İyulun 10-da keçirilən növbəti belə iclasda 2014-cü ilin birinci yarısında görülən işlər, qazanılan uğurlar geniş təhlil olunmuşdur. İclasda nitq söyləyən Prezident İlham Əliyev əldə olunan müsbət nəticələri qeyd etməklə yanaşı qarşıda duran vəzifələrə də geniş aydınlıq gətirmişdir.

İtaliya dünyanın ən inkişaf etmiş, beynəlxalq aləmdə özünə məxsus səsi, sözü və çəkisi olan ölkələrindəndir. Ölkəmizin başçısının iyulun 13-də bu ölkəyə rəsmi səfərinin böyük maraq doğurması da bununla bağlı idi. Burada böyük hörmət və ehtiramla qarşılanan Prezident İlham Əliyev bir sıra maraqlı görüşlərin iştirakçısı olmuş, tərəflər arasında hər iki ölkənin mənafeyinə xidmət edən mühüm sənədlər imzalanmışdır.

İyulun 16-da isə dövlətimizin başçısı Alternativ Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin "Azalternativenerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin Suraxanı Günəş Elektrik Stansiyasının açılışında iştirak etmişdir. Stansiyanın fəaliyyəti ilə yaxından tanış olan Prezident İlham Əliyev sonda öz tapşırıq və tövsiyələrini vermişdir.

Ayların sultanı, tacı sayılan ramazan ayının gəlişi mömin insanlar tərəfindən həmişə böyük sevinclə qarşılanır. Onlar oruc tutur, xalqımızın və millətimizin xoşbəxtliyi, əmin-amanlığı üçün dualar edirlər. İyulun 17-də Prezident İlham Əliyevin Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin öz iqamətgahında açdığı iftar süfrəsində iştirakı ölkəmizdə dini dəyərlərə olan böyük hörmət və ehtiramın yeni bariz nümunəsi idi. Mərasimdə çıxış edən dövlətimizin başçısının bununla bağlı fikirləri ölkəmizdə bundan sonra da belə olacağını bir daha təsdiqlədi.

Azərbaycanın inkişafında, yeni iş yerlərinin yaradılmasında, əhalinin dolanışığının yaxşılaşmasında özəl sektorun özünə məxsus xüsusi payı var. İyulun 21-də Prezident İlham Əliyevin Bakının Qaradağ rayonunun ərazisində yerləşən "Norm" sement zavodunun açılışında iştirakı da bu sahəyə verdiyi dəstəyindən irəli gəlirdi. Buradakı işlərlə yaxından tanış olan dövlət başçısı kollektivə yeni uğurlar arzulamışdır.

Ertəsi gün isə Prezident İlham Əliyev Xızı rayonuna səfərə yola düşmüşdür. Rayondakı bir sıra obyektlərin açılışını həyata keçirən dövlət başçısı, eyni zamanda böyük bir ərazinin suvarılmasına, ölkədə ərzaq bolluğunun yaradılmasına xidmət edəcək Taxtakörpü-Ceyranbatan kanalından suyun yeni suvarılan torpaqlara verilməsi üçün suburaxıcı qurğunun təməlqoyma mərasimində iştirak etmişdir.

Gələn il Bakıda keçiriləcək Birinci Avropa Olimpiya Oyunları bütün dünyanın maraqla, səbirsizliklə gözlədiyi beynəlxalq tədbirlərdəndir. Neçə vaxtdan bəri bu möhtəşəm tədbirə hazırlaşan ölkəmizdə geniş hazırlıq işləri görülür, bir-birindən maraqlı layihələr həyata keçirilir. İyulun 24-də Prezident İlham Əliyevin Bakı Olimpiya Stadionunda görülən işlərlə tanış olması, müvafiq qurumların rəhbərlərinə tapşırıq və tövsiyələrini verməsi də bununla bağlı idi.

Dövlət başçısı cənab İlham Əliyevin sonrakı qəbul və görüşləri, səfərləri, imzaladığı sərəncamları və digər genişmiqyaslı fəaliyyəti də ölkəmizin gələcək inkişafına, dövlətimizin daha da möhkəmlənməsinə xidmət edir.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTƏ GƏLİŞİNİN 45-Cİ İLDÖNÜMÜ RAYONUMUZDA DA EHTİRAMLA ANILDI

Nə yaxşı ki, xalqları, millətləri əsarətdə saxlayan sovet imperiyası arxada qaldı. Bu rejim özündə minilliyi ehtiva edən bütün prosesləri

vahid bir ideoloji doktrinaya tabe etdirmək üçün müxtəlif metodlardan yararlanaraq hamını eyni cür düşünməyə vadar edirdi. Həmin dövrdə Azərbaycanda da milli-mənəvi dəyərlərin itirilməsinə, məhv edilməsinə hesablanmış siyasət yürüdülürdü və çox təəssüf ki, bəzən bu siyasətin yeridilməsində xalqımızın içindən çıxmış ziyalılar da bu və ya digər dərəcədə iştirak edirdilər. Bir çox hallarda respublikaya rəhbərlik edən şəxslər bu prosesin qarşısını almağa nəinki heç bir cəhd göstərmirdilər, əksinə, onun sürətlənməsinə təkan verirdilər. Elə bunun nəticəsi idi ki, 70-ci illərə kimi respublikada yerli kadrlar sıxışdırılır, rus dilinin üstünlüyünü təmin edən siyasət aparılır, dini dəyərlər hər vasitə ilə unutdurulur, xalqın milli-mənəvi dəyərlərinin, tarixi adət-ənənələrinin aradan qaldırılmasına cəhdlər göstərilirdi. İş o yerə çatmışdı ki, xalqın öz doğma dili kənara qoyulmuşdu, bütün rəsmi yazışmalar və çıxışlar yalnız rus dilində həyata keçirilirdi.

Azərbaycanı uçuruma, fəlakətə aparan bu proses düz 1969-cu ilə, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişinə kimi davam etdi. Sonra hər şey kökündən dəyişməyə, yeniləşməyə başladı. Respublikada sözün əsl mənasında milli-mənəvi intibah dövrü başlandı. Azərbaycanlı gənclərin ölkənin ictimai-siyasi həyatında və dövlət idarəetmə strukturlarında fəal iştirakının təmin olunması istiqamətində atılan addımlar o günlərə deyil, gələcək dövrə, zamana hesablanmışdı. Onlar yüksək təhsil almaq üçün ittifaqın ən yaxşı ali təhsil ocaqlarına göndərilirdilər. 1969-cu ildən başlayan bu prases səksəninci illərin sonlarına kimi davam etdi. Yüksək səviyyədə yetişmiş azərbaycanlı kadrlar nəinki respublika, habelə ittifaq miqyasında çalışaraq doğma Azərbaycanı hər yerdə tanıtdırmağa başladılar.

Respublikanın bütün ərazilərində böyük quruculuq işlərinə start verildi. Azərbaycan əsl tikinti meydanına çevrilmişdi. Hər yerdə yeni-yeni istehsal müəssisələri yaradılır, zavodlar, fabriklər tikilir, yollar çəkilirdi. Müasir səhiyyə ocaqlarının, məktəblərin tikilməsi xalqın sağlamlığına, yetişməkdə olan gənc nəslin gələcək inkişafına hesablanmışdı. Dünənə qədər heç yerdə tanınmayan respublika getdikcə önə çıxmağa, sayılıb seçilməyə başladı. Uzun illər yalnız aqrar ölkə kimi tanınan Azərbaycanın qısa zaman kəsiyində inkişaf edərək aqrar-sənaye ölkəsinə çevrilməsi həyata keçirilən məqsədyönlü siyasətin, Heydər Əliyev zəkasının bəhrəsi idi. Respublikanın sənaye potensialı artdıqca o, ittifaq miqyasında daha geniş şəkildə tanınmağa başlayırdı. Bir çox məsələlərin həllində Azərbaycan rəhbərliyinin fikri ilə hesablaşır, bu fikri əsas götürürdülər.

Ulu Öndər Heydər Əliyev milli adət-ənənələrimizin qorunmasına xüsusi diqqət yetirirdi. Bu dahi insan xalqımızın tarixi oyanışını, onun tarixi yaddaşını, dilimizin, milli-mənəvi dəyərlərimizin qorunmasını təmin etmişdi. Həmin dövrdə ən əziz bayramımız olan Novruzun kütləvi şəkildə qeyd olunmasına qoyulan qadağa məhz möhtərəm Heydər Əliyevin səyləri sayəsində aradan qaldırılmış, xalqımız öz milli bayramını ən yüksək səviyyədə qeyd etmişdir.

Özünün qurub yaratdığı müstəqil Azərbaycana rəhbərliyi dövründə də möhtərəm Heydər Əliyev ölkəmizin inkişafı, onun beynəlxalq aləmdə tanınması üçün əlindən gələni əsirgəməmişdir. 1994-cü il sentyabrın 20-də dünyanın aparıcı neft şirkətlərilə bağlanan müqavilələr bu cəhətdən müstəsna əhəmiyyətə malikdir. Məhz bu tarixi müqavilələrlə Azərbaycanda coşqun iqtisadi inkişafın təməli qoyulmuşdur. Ümumiyyətlə, ictimai-siyasi həyatımızın elə bir sahəsi yoxdur ki, həmin sahə bu dahi insanın diqqətindən kənarda qalsın. Çox sevindiricidir ki, Ulu Öndər Heydər Əliyev tərəfindən başlanmış bu böyük quruculuq işləri möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən daha böyük dinamika ilə davam etdirilir. Nəticədə xalqın maddi rifah halı durmadan yaxşılaşır, Azərbaycanın dünyada çəkisi getdikcə artır.

Ulu Öndər Heydər Əliyev rayonumuzda da böyük məhəbbətlə anılır, Ümummilli Liderimizin əziz xatirəsi daim uca tutulur. Neftçalanın müstəqil rayon kimi yenidən fəaliyyətə başlaması məhz bu dahi insanın adı ilə bağlıdır. O vaxtdan başlayaraq rayonumuz inkişaf edir, uğurlar qazanır, nailiyyətlərini durmadan genişləndirir. Doğma Neftçalamızın son illərdəki inkişafı xüsusilə ölçüyəgəlməzdir. Həyata keçirilən genişmiqyaslı quruculuq, abadlıq işləri nəticəsində rayonumuz, xüsusilə Neftçala şəhəri xeyli dərəcədə dəyişərək müasirləşmişdir. Əgər o vaxt Neftçalaya Ulu Öndərin təşəbbüsü ilə müstəqil rayon statusu verilməsəydi yəqin ki, bu günkü inkişafdan, tərəqqidən danışa bilməzdik.

Elə bir tarixi, əlamətdar gün olmur ki, rayon sakinləri Ümummilli Lider Heydər Əliyevə bəslədikləri dərin hörmət və ehtiramı əyani şəkildə nümayiş etdirməsinlər. Bu il iyulun 14-də — Ulu Öndərin hakimiyyətə gəlişinin 45-ci ildönümü günündə də belə oldu. Həmin gün rayonumuzda böyük sevinc yaşanırdı. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev başda olmaqla rayon ictimaiyyətinin nümayəndələri Ümummilli Liderin Heydər Əliyev Mərkəzinin qarşısındakı əzəmətli abidəsinin önünə gələrək buraya ətirli gül dəstələri düzdülər, müstəqilliyimizi əbədi edən bu dahi insana özlərinin dərin ehtiramlarını bildirdilər.

Əlamətdar günlə bağlı idarə və müəssisələrdə, ümumtəhsil məktəblərində, mədəniyyət obyektlərində və digər yerlərdə keçirilən tədbirlər yaddaqalan oldu. Həmin tədbirlərdə Ulu Öndər Heydər Əliyevin mənalı ömür yoluna yenidən nəzər salındı, dövlətimiz qarşısındakı misilsiz xidmətləri bir daha dilə gətirildi.

KANNDAKI AZƏRBAYCAN MƏDƏNİYYƏTİ GÜNLƏRİ UNUDULMAZDIR

Elə insanlar var ki, dünyaya xeyirxahlıq etmək üçün gəlirlər. İnsanlara kömək göstərmək, yıxılanın qolundan tutmaq, kimsəsizə həyan olmaq, mərhəmət, şəfqət göstərmək onların həyat idealına, amalına çevrilir. Belələri həm də xalqını, millətini ürəkdən sevir, təkcə sevinci, fərəhilə deyil, ağrı-acıları ilə yaşamağı da bacarırlar. Xalqını dünyada layiqincə təmsil etdikləri kimi, onun ən gözəl xüsusiyyətlərini, özünəməxsus adət-ənənələrini təqdim etməyi də bacarırlar dünyaya.

Bunları düşünəndə ilk olaraq Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva gəlir gözlərimizin önünə. O, doğrudan da çox işıqlı, nurlu bir insandır. Yuxarıda sadaladığımız bütün nəcib xüsusiyyətlər bu şəfqətli xanımda toplanmışdır. Elə buna görə onu təkcə xalqımız deyil, bütün dünyanın xalqları, millətləri sevirlər. Özü də ürəkdən. Mehriban xanımın hər yerdə böyük hörmətlə, ehtiramla qarşılanması da bununla bağlıdır. Bu günlərdə Fransanın Kann şəhərində Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində keçirilən təntənəli tədbirlərdə bunu bir daha əyani şəkildə gördük. Burada bütün tədbirlər Azərbaycanın tanıdılmasına, təbliğinə yönəldilmişdi. Bizi ən çox sevindirən də elə bu oldu. Ölkəmiz, xalqımız dünyaya böyük dahilər bəxş etmiş Fransaya hərtərəfli təqdim edildi.

Əvvəlcə "Bakı Avropa Oyunları — 2015"-in təqdimatının əsl sevincini yaşadıq. Azərbaycanın birinci xanımı, ilk Avropa Oyunlarının təşkilat komitəsinin sədri Mehriban Əliyevanın mərasimdəki çıxışı böyük maraqla qarşılandı. 2015-ci ildə Bakıda keçiriləcək Birinci Avropa Oyunlarına hazırlıqla əlaqədar görülən işlər, həyata keçirilən tədbirlər barədə fransalılara ətraflı məlumat verən Mehriban xanım həm də onları öz ölkəsinə, Azərbaycana dəvət etdi.

İyulun 10-da Kannda Festivallar və Konqreslər sarayında bir neçə sərgini özündə birləşdirən "Azərbaycan: ənənələrin və gələcəyin ölkəsi" sərgisinin açılışı da unudulmazdır. Bizim üçün ən əhəmiyyətlisi o idi ki, sərgiyə təkcə fransızlar deyil, Kann şəhərinə gələn əcnəbi turistlər də böyük maraq göstərirdilər. Mehriban xanımın buradakı çıxışını da həyəcansız izləmək olmurdu. Sərgi ilə tanışlığın fransızlarda və əcnəbilərdə yaşatdığı zəngin təəssürat bizi də ürəkdən sevindirdi.

Daha sonra Kannda Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində Avropa Oyunlarına həsr olunmuş yürüşü, caz musiqi konsertini izlədik, dünya şöhrətli modelyer Renato Balestranın Azərbaycan milli geyimlərinə həsr olunmuş "Müasir dəbdə Azərbaycan cazibəsi" adlı moda nümayişinə baxdıq. Avropalı xanımlar müasir Azərbaycan geyimlərində necə də gözəl görünürdülər. Keçirilən hər bir tədbirdə istilik, milli kolorit duyulurdu. Ölkəmizin uğurları, adət-ənənələri, milli xüsusiyyətlərilə yaxından tanış olan fransızlarda xalqımıza, respublikamıza qarşı rəğbət hissi daha da artırdı. Kann şəhərinin meri Devid Lisnardın, Fransa Olimpiya və İdman Komitəsinin prezidenti Deni Masseqliyanın, Kannın Festivallar və Konqreslər sarayının direktoru Kler-Ann Reqsin, Fransa Milli Assambleyasının üzvü, Azərbaycan Dostları Assambleyasının sədri Jan-Fransua Monselin, Kann şəhərinin keçmiş meri, Fransa Milli Assambleyasının deputatı Bernar Broşənin və digərlərinin çıxışlarındakı səmimiyyət, Fransanın nüfuzlu "Nice-Matin" qəzetində dərc olunan isti məqalələr bunu bir daha nümayiş etdirirdi.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Azərbaycanın dünyada tanıdılmasına, dünyaya təqdim olunmasına özünün misilsiz töhfələrini verir. Biz bunun dəfələrlə şahidi olmuşuq. Bu cəhətdən Kann görüşləri də unudulmazdır. Əgər bu şəhərdəki birinci görüşdə Fond özünün rəngarəng tədbirlərilə fransızların rəğbətini qazanmasaydı, yəqin ki, onlar Azərbaycan Mədəniyyəti Günlərinin iştirakçılarına, nümayəndə heyətinə ikinci dəfə belə isti münasibət göstərməzdilər. Şübhəsiz, bu işdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın yüksək mədəniyyəti, intellektual səviyyəsi də az rol oynamadı. Biz öz elini, obasını, Vətənini, xalqını böyük məhəbbətlə sevən bu şəfqətli xanımla həmişə fəxr edirik.

Kann görüşlərindən az sonra Bakıda iki cilddən ibarət "Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə" kitabının təqdimat mərasimi bunu bir daha əyani şəkildə göstərdi. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Yeni Azərbaycan Partiyası ilə birlikdə təşkil etdiyi bu mərasimdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın çoxcəhətli fəaliyyəti barədə deyilən səmimi sözləri dinləmək olduqca xoş idi. Bu qiymətli kitabı oxumaqla siz bu şəfqətli xanımın mənalı ömür yolu, xeyirxah əməlləri, nəcib işləri ilə daha yaxından tanış ola bilərsiniz.

Aytəkin MAHMUDOVA,
Neftçala şəhər internat ümumi orta məktəbinin direktor əvəzi

Ígid əsgərlərimizin şəhid olması neftçalalıları da sarsıtdı

SSRİ-nin dağılmasından, Qorbaçovun himayədarlığından istifadə edən ermənilər ötən əsrin axırlarından başlayaraq xalqımızın başına olmazın müsibətlərini, fəlakətlərini gətirirlər. Məhz xarici havadarlarının yardımı, xeyir-duası nəticəsində uzun illər çörəyimizi yeyib, suyumuzu içən mənfur qonşularımız torpaqlarımızı zəbt etməyə, azərbaycanlılara qarşı soyqırım siyasətini həyata keçirməyə başladılar. Nəticədə ərazilərimizin xeyli hissəsini itirdik, bir milyondan çox soydaşımız dədə-baba torpaqlarını, ev-eşiklərini itirərək qaçqın və köçkün vəziyyətinə düşdülər.

Çoxlu sayda insanların həlak olmasına səbəb olan genişmiqyaslı qanlı döyüşlərə yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra son qoyuldu. İki ölkə arasında atəşkəs elan olunsa da, xalqımıza, millətimizə qənim kəsilən ermənilər mütəmadi olaraq şərtləri pozur, cəbhə xəttində silahlı münaqişələr, təxribatlar törədirlər. Yüzlərlə soydaşımız, sərhədlərimizin keşiyində dayanan əsgərlərimiz məhz bu silahlı təxribatların qurbanı olur, həyatla əbədi vidalaşırlar.

Bir neçə gün bundan qabaq yenə neçə-neçə əsgərimizi itirdik, neçəsi isə ağır yaralandı. Çox təəssüf ki, əvvəlki kimi yenə nə beynəlxalq qurumların, beynəlxalq aləmin, nə də Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun sərt reaksiyasını, münasibətini görmədik. Lazım gələndə, özlərinə sərf edəndə səslərini qaldıran, hətta silahlı müdaxilədən belə çəkinməyən nüfuzlu beynəlxalq təşkilatlar, Qərb dövlətləri yenə susdular, yalnız məsləhətlər verməklə kifayətləndilər. On illərdir Azərbaycan ərazisində qan tökülür, dinc insanlar öldürülür, torpağını qoruyan əsgər şəhid olur, amma heç kim səsini çıxartmır. Heç kim erməni quldurlarını yerində oturtmaq üçün heç bir qətiyyətli addım atmır, tədbir görmür. Əksinə, bu və ya digər şəkildə müdafiə edirlər, qızışdırırlar, maddi və mənəvi kömək göstərirlər. Budurmu həqiqət?! Buna ikili standartdan, haqsızlıqdan, ədalətsizlikdən başqa nə ad vermək olar?! Görəsən belə haqsızlıq, ədalətsizlik nə vaxta kimi davam edəcək?! Kimlərinsə maraqları, ambisiyaları ucbatından analar nə qədər göz yaşları tökəcək, insana bir dəfə verilən ömür yarıda qırılacaq?!

İgid Vətən oğullarının namərd düşmən gülləsinə tuş gələrək şəhid olmaları rayonumuzun sakinlərini də sarsıtmış, onları da hiddətləndirmişdir. Neftçalalılar da xalqımızın, şəhid ailələrinin dərdinə ürəkdən şərik olaraq igid Vətən oğullarının müqəddəs ruhları qarşısında baş əyirlər. İnanırlar ki, onların qanı yerdə qalmayacaq. Gündən-günə güclənən, möhkəmlənən ordumuz gec-tez öz sözünü deyəcək. Ali Baş Komandan hücum əmri versə, onda əsgərlərimiz döyüşə atılaraq öz yoldaşlarının, dostlarının intiqamını alacaqlar. Gərək ermənilər bunu unutmasınlar. Unutmasınlar ki, qisas günü ağır olacaq.

ŞURA İCLASINDA İLİN BİRİNCİ YARISINA YEKUN VURULDU

Prezident İlham Əliyevin ardıcıl səyləri, səmərəli fəaliyyəti nəticəsində ölkənin iqtisadi gücü durmadan artır, əldə olunan nailiyyətlər daha da möhkəmləndirilir. Dövlət başçısının Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələrlə əlaqədar rayon icra hakimiyyətində keçirilən toplantıda bu bir daha vurğulandı.

Toplantı başlanmazdan əvvəl yığıncaq iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gələrək buraya tər çiçəklər düzdülər, Ulu Öndərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

İdarə və müəssisə rəhbərlərinin, bələdiyyə sədrlərinin, özəl qurumların rəhbərlərinin, ictimai təşkilatların nümayəndələrinin və digər şəxslərin iştirak etdikləri bu yığıncaqda rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev ötən 6 ayın yekunları ilə əlaqədar rayonumuzda görülən işlərdən, əldə olunan uğurlardan danışdı. Qeyd olundu ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasi irsinə əsaslanmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla həyata keçirilən sosial-iqtisadi inkişaf kursu ölkə iqtisadiyyatının davamlı inkişafını təmin edərək müsbət sosial-iqtisadi nəticələrin əldə edilməsinə gətirib çıxarmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş 10 iyul 2014-cü il tarixli iclasındakı nitqində demişdir: " Deyə bilərəm ki, ilin birinci yarısında ölkəmizin uğurlu inkişafı təmin edilmişdir. Qarşıda duran bütün məsələlər uğurla icra edilmişdir. Bir dənə də olsun icra edilməmiş məsələ yoxdur. Əlbəttə, bu, deməyə əsas verir ki, ilin sonuna qədər də bütün vəzifələr icra ediləcək, ölkəmizin dinamik uğurlu inkişafı davam edəcəkdir. Bizim uğurlarımızın təməlində düşünülmüş siyasət, sabitlik dayanır. İqtisadi sahədə aparılan islahatlar da mühüm yer tutur. Çünki bu islahatlar sayəsində Azərbaycanın dayanıqlı inkişafı mümkün olmuşdur. Davos Dünya İqtisadi Forumu- dünyanın bir nömrəli iqtisadi forumu Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyini yüksək qiymətləndirərək bizi 39-cu yerdə yerləşdiribdir. Hesab edirəm ki, gənc müstəqil ölkə üçün bu, çox böyük göstəricidir.

Birinci altı ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir- iqtisadiyyat 2,1 faiz artmışdır. Bəlkə də əvvəlki dövrlərlə müqayisədə bu, o qədər də böyük rəqəm deyildir. Ancaq bu gün dünyada, bölgədə və Avropada yaşanan iqtisadi çətinliklər fonunda hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Ən sevindirici hal ondan ibarətdir ki, mən bunu sevinc hissi ilə qeyd edirəm, - son illər ərzində qeyri-neft sektorumuz uğurla artır və qeyri-neft sektorumuzda inkişaf 7 faiz səviyyəsindədir. Bu da əlbəttə ki, dediyim məsələlərin nəticəsidir. Çünki əgər biz vaxtilə neft kapitalını insan kapitalına, infrastruktur layihələrinə yönəltməsəydik, bu gün qeyri-neft sektorumuz bu qədər arta bilməzdi. Bəlkə də tənəzzülə uğrayardı və onda biz ancaq neft amilindən asılı ola bilərdik. Gələcək illərdə ayrılan vəsait və aparılan islahatlar qeyri-neft sektorunun daha da böyük çəkiyə malik olmasına gətirib çıxaracaqdır.

İnflyasiya Azərbaycanda nəinki birrəqəmlidir, hətta 1,6 faiz təşkil edir. Bu, çox gözəl göstəricidir. Xüsusilə nəzərə alsaq ki, ölkəmizə bu qədər həm daxili, həm xarici investisiyalar qoyulur, maaşlar, pensiyalar ildən-ilə qaldırılır, sovet vaxtından qalmış əmanətlər kompensasiya şəklində, MDB-də ən böyük əmsalla, ən qısa müddət ərzində insanlara qaytarılmışdır- bütün bu amillərə baxmayaraq, inflyasiya cəmi 1,6 faizdir. Əhalinin pul gəlirləri isə 4,7 faiz artıb, yəni, inflyasiyanı 3 dəfə üstələyir. İstənilən ölkə üçün bu, ən arzu olunan balansdır. Ona görə bu amillər, iqtisadiyyatımızın əsas göstəricilərini bizə ümid verir deyək ki, biz bu templəri ilin sonuna qədər saxlayacağıq. Ümid edirəm belə də olacaqdır, ümumi daxili məhsul daha da artacaqdır. Kənd təsərrüfatında inkişaf müşahidə olunur. Kənd təsərrüfatımız təxminən 6 faiz artıbdır. Ümid edirəm ki, biz gələn illərdə daha da böyük artıma nail olacağıq.

Bu il üçüncü regional inkişaf proqramı qəbul edilmişdir. Bu proqramın icrası nəticəsində artıq ilin altı ayında 65 min yeni iş yeri açılmışdır ki, onlardan 52 mini daimi iş yeridir. 2003-cü ildən bu günə qədər- bu proqramlar icra edilməyə başlayandan sonra isə 1 milyon 300 min iş yeri açılmışdır. Onlardan təqribən 1 milyonu daimi iş yeridir. Demək olar ki, işsizlik böyük dərəcədə aradan qaldırılmışdır, çox aşağı səviyyədədir. Üçüncü regional inkişaf proqramının icrası nəticəsində 2018-ci ilə qədər bizim bütün əsas infrastruktur və sosial məsələlərimiz öz həllini tapmalıdır. Əminəm ki, belə də olacaqdır.

Sosial məsələlərin həlli bu altı ayda da diqqət mərkəzində olmuşdur. Orta əmək haqqı artıb, indi 440 manat və ya 560 dollar təşkil edir. Əminəm ki, daha da artacaqdır. Sosial infrastruktur layihələri icra edilir. Səksəndən çox təhsil müəssisəsi, qırxdan çox səhiyyə ocağı təmir olunur, tikilir. Yəni bu da sosial sahəyə ayrılan vəsaitin, diqqətin hesabına olan məsələlərdir.

Sonra məruzəçi salondakıların diqqətini 2014-cü ilin birinci yarısında rayonumuzun sosial-iqtisadi inkişafı istiqamətində görülmüş işlərə yönəltdi. Qeyd etdi ki, 2014-cü ilin birinci yarısında rayonda ümumi məhsul istehsalının həcmi 2013-cü ilin müvafiq dövrünə nisbətən 0,7% artmışdır. Hesabat dövründə ümumi məhsul istehsalı 111,0 milyon manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,8 milyon manat çoxdur. 2014-cü ilin birinci yarısında ümumi məhsulun tərkibində sənaye məhsulu 12 milyon 714,4 min manat və ya ümumi məhsulun 11,4%-i qədər, kənd təsərrüfatı məhsulu 53 milyon 277,5 min manat və ya 48,0%, nəqliyyat xidməti 822,8 min manat və ya 0,7%, rabitə xidməti 305,8 min manat və ya 0,3%, ticarət, iaşə və digər xidmət sahələrinin həcmi 32 milyon 330,7 min manat və ya 29,1% , tikinti işlərinin həcmi 11 milyon 561,8 min manat və ya 10,5% olmuşdur. Ümumi məhsulun həcmində qeyri-dövlət bölməsinin payı 2013-cü ilin birinci yarımilinə nisbətən 0,7% artaraq 87,1%-ə çatmışdır. Adambaşına 1327,6 manatlıq və ya 2013-cü ilin müvafiq dövrünə nisbətən 1,1% çox məhsul istehsal edilmişdir.

2014-cü ilin birinci yarısında rayonda 4 yeni müəssisə yaradılmış, 317 fiziki şəxs fəaliyyətə başlamışdır. Yeni yaradılmış müəssisələrin hesabına 4, fiziki şəxslər üzrə 317, mövcud müəssisə və təşkilatlarda 108 olmaqla, cəmi 429 daimi yeni iş yeri açılaraq işsiz və iş axtaran vətəndaşlar işlə təmin olunmuşdur. Rayonda aparılan tikinti, quruculuq, abadlıq işlərinə 135 nəfər, kənd təsərrüfatında mövsümü işlərə 1305 nəfər cəlb olunmuşdur.

Cari ilin birinci yarısında əhalinin nominal pul gəlirləri 26 milyon 13,0 min manat olmuş, 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,1% artmışdır. Adambaşına düşən pul gəlirləri 2,0% artaraq 311,2 manat olmuşdur. Rayon üzrə bir işçinin orta aylıq əmək haqqı 267,6 manat təşkil edir. Bu isə 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,0% çoxdur. İlin əvvəlindən əhaliyə 75,2 milyon manatlıq istehlak malları satılmış və xidmətlər göstərilmişdir.

2014-cü il üçün rayonun yerli gəlirləri 5 milyon 104,0 min manat, xərcləri isə 16 milyon 323,0 min manat təsdiq olunmuşdur. İlin birinci yarısında büdcəyə 2 milyon 343,0 min manata qarşı 2 milyon 380,0 min manat vəsait daxil olmuş və ya 102% icra olunmuşdur. Yerli xərclər isə 8 milyon 8,0 min manata qarşı 6 milyon 959,0 min manat və ya 86,9% icra edilmişdir.

01 iyul 2014-cü il tarixə pensiya və müavinət alanların sayı 13376 nəfər, ünvanlı dövlət sosial yardımı alanların sayı 1219 ailə olmuş, 146 kimsəsiz, ahıl və əlillərə sosial məişət xidməti göstərilmişdir. İlin birinci yarısında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 5 nəfər müharibə əlilinə pulsuz avtomobil verilmişdir.

Sözünə davam edən məruzəçi qeyd etdi ki, rayonda hesabat dövründə aqrar sahədə müsbət irəliləyişlər olmuşdur. Cari ilin birinci yarısında kənd təsərrüfatının ümumi məhsulu 533 milyon manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,1% artıqdır. Göstərilən dövrdə diri çəkidə 6336,1 ton ət, o cümlədən quş əti 4439,1 ton, 9739 ton süd, 2 milyon 682 min ədəd yumurta istehsal olunmuş, 2013-cü ilin birinci yarısı ilə müqayisədə ət istehsalı 1583,6 ton, süd istehsalı 66,7 ton, yumurta istehsalı 2 min ədəd artmışdır. Cari ilin məhsulu üçün taxıl əkini sahəsi xeyli genişləndirilərək 45158 hektara çatdırılmışdır.

Bitkiçilik sahəsindən yüksək məhsul götürmək məqsədilə meliorativ tədbirlərin həyata keçirilməsində müəyyən işlər görülmüşdür. Cari ilin birinci yarısında 242,7 km suvarma kanalları, 82,1 km kollektor-dren sistemi ildən təmizlənmiş, suvarma kanallarında 37 ədəd, kollektor-drenlərdə 33 ədəd hidrotexniki qurğular, nasos stansiyası və aqreqatları əsaslı və cari təmir edilmişdir.

Heyvandarlığın inkişafı sahəsində müsbət irəliləyişlərə nail olmaqla 01 iyul 2014-cü il tarixə iri buynuzlu mal-qaranın baş sayı 42504 başa, qoyun və keçilərin baş sayı 134727 başa çatdırılaraq ötən ilin eyni dövrü ilə müqayisədə 442 və 722 baş artmışdır.

Məruzədə bildirildi ki, rayon icra hakimiyyəti 2014-ci ilin birinci yarısında rayon ərazisində təmir, tikinti və abadlıq işlərinin görülməsini diqqət mərkəzində saxlamış, həyata keçirilən işlərin keyfiyyətinə xüsusi önəm vermişdir.

Hesabat dövründə rayon ərazisində tikinti, təmir, yol çəkilişində 12 milyon 429,5 min manatlıq, kommunal və sair xidmətlər sahəsində 93 min 887 manatlıq iş həcmi yerinə yetirilmişdir. Rayonun Heydər Əliyev prospektinin yenidən qurulması, yeni parkların salınması, prospekt boyunca yol kənarlarının abadlaşdırılması, rayon icra hakimiyyətinin, Heydər Əliyev Mərkəzinin inzibati binalarının, Bayraq meydanının, Şəhidlər Kompleksinin, Kür çayı sahilindəki Bulvarın , yeni müasir saat qülləsinin tikintisi başa çatmışdır. "İdman Kompleksi"nin tikintisi ilə əlaqədar ərazinin hazırlanması işləri davam etməkdədir. Yuxarı Qaramanlı kəndində 360 şagird yerlik tam orta məktəbin, Aşağı Surra kəndində 360 şagird yerlik tam orta məktəbin əsaslı təmiri və əlavə 10 ədəd sinif otağının, Kürkənd kəndində 200 şagird yerlik tam orta məktəbin tikinti işləri uğurla davam etməkdədir.

Azərbaycan Respublikası Prezidentinin 29 may 2014-cü il tarixli sərəncamına əsasən rayonunun sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədi ilə 2014 - cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 2 milyon manat, 37 min nəfər əhalinin yaşadığı 21 yaşayış məntəqəsini birləşdirən Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolunun tikintisi məqsədi ilə isə 3 milyon manat vəsaitlərin ayrılması abadlıq işlərini daha da genişləndirməyə imkan verəcəkdir.

Məruzədən aydın oldu ki, hesabat dövründə rayon icra hakimiyyəti tərəfindən rayonda ictimai-siyasi tədbirlərin hazırlanıb keçirilməsinə xüsusi fikir verilmiş, humanitar sahədə bir çox işlər həyata keçirilmişdir. 2014-cü ilin birinci yarısında ən mühüm ictimai-siyasi hadisə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayonumuza səfəri olmuşdur. 28 may 2014-cü il tarixində cənab Prezident rayonumuza tarixi səfəri ilə bir neçə inzibati və sosial əhəmiyyətli obyektlərin açılışında iştirak etmişdir. İlk öncə cənab Prezident xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Neftçala şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu. Sonra Prezident İlham Əliyev Heydər Əliyev Mərkəzinin açılışında iştirak edərək orada rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirdi. Daha sonra dövlət başçısı rayon icra hakimiyyətinin yeni inzibati binasının açılışını etdi, Kür çayı sahilində istifadəyə verilən park-bulvar kompleksində aparılan abadlıq-quruculuq işləri ilə tanış oldu.

2014-cü ilin birinci yarısında rayon ərazisində ictimai-siyasi sabitliyin qorunub saxlanılması işlərinə də diqqət yetirilmiş, partiyalar və qeyri-hökumət təşkilatları ilə bir sıra əlaqəli işlər aparılmışdır. Rayonda 13 siyasi partiya, 18 qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Burada dini durum daim nəzarətdə saxlanılmış, dindarlarla əlaqələr zamanı "Dini etiqad azadlığı haqqında" Qanunun müddəalarına riayət olunması onlara tövsiyə olunmuşdur.

Rayonda fəaliyyət göstərən "Gündoğar" qəzetində ölkə rəhbərliyinin həyata keçirdiyi siyasət hərtərəfli təbliğ olunmuş, sosial-iqtisadi məsələlər geniş işıqlandırılmış, milli-mənəvi dəyərlərin təbliğinə dair materiallar dərc edilmişdir.

2014-cü ilin birinci yarısında rayon təhsil şöbəsi və rayonun təhsil müəssisələri təlim-tərbiyə işlərinin səviyyəsinin yüksəldilməsi, tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə bir sıra işlər görmüşlər.

Ümummilli Lider Heydər Əliyev irsinin öyrənilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə təhsil şöbəsinin Fəaliyyət Planı hazırlanmışdır. Fəaliyyət Planına əsasən mart ayının 10-na qədər ümumtəhsil müəssisələrində Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş inşa-yazı müsabiqəsinin seçimləri aparılmış və 31 qalib 13 mart 2014-cü il tarixində keçirilmiş rayon turunda iştirak etmişdir.

Rayonun ümumtəhsil məktəblərinin XI sinif şagirdlərinə fevral-may ayları ərzində Ulu Öndər Heydər Əliyev irsinin öyrədilməsi məqsədilə rayonun Heydər Əliyev Mərkəzində dərslərin yüksək səviyyədə hazırlanıb keçirilməsi ilə bağlı bütün zəruri tədbirlər görülmüş və bu işlər nəzarətə götürülmüşdür. Ümumilikdə tərtib edilmiş qrafikə əsasən rayonun 28 tam orta məktəbindən 693 nəfər XI sinif şagirdi bu dərslərə cəlb edilmişdir.

İyun ayında Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən keçirilən buraxılış imtahanlarının nəticəsində 682 nəfər XI sinif şagirdi attestat, 912 nəfər IX sinif şagirdi isə ümumi orta təhsil səviyyəsi üzrə şəhadətnamə almışdır. Ümumilikdə bu il ali məktəblərə 368 nəfər abituriyent sənəd vermişdir.

Yeni tikilən və əsaslı təmir olunan təhsil müəssisələri ilə yanaşı rayonda 15 məktəbin yenidən tikintiyə, 21 məktəbin isə əsaslı təmirə ehtiyacı vardır.

Hesabat dövründə Neftçala mərkəzi xəstəxanasında əhaliyə göstərilən ambulator-poliklinik xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində müəyyən işlər görülmüşdür. Hazırda rayonda ümumi stasionar 160 çarpayılıq 2 xəstəxana, 15 həkim məntəqəsi və 4 tibb məntəqəsi fəaliyyət göstərir.

Ölkə Prezidenti cənab İlham Əliyevin verdiyi tapşırığa əsasən fevral ayının 17-dən respublika əhalisinin pulsuz tibbi müayinədən keçirilməsinə başlanılmış, rayon ərazisində əhalinin tibbi müayinədən keçirilməsi rayonumuzda da yaxşı təşkil olunmuşdur. Fevral ayının 17-dən may ayının 1-dək rayonun 52 yaşayış məntəqəsində yaşayan 67268 nəfər bu müayinələrdən keçmişdir ki, bunun 12050 nəfərini uşaq kontingenti təşkil etmişdir. Bununla yanaşı iyun ayında Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Neftçala Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Milli Onkologiya Mərkəzinin yüksək ixtisaslı həkim mütəxəssislərindən ibarət səyyar həkim briqadasının onkoloji xəstəliklərin erkən aşkar olunması məqsədilə rayonumuzda apardıqları müayinələr də diqqət mərkəzində olmuşdur. Həmin tədbir zamanı müayinələrdən keçənlərin ümumi sayı 1051 nəfər olmuşdur.

Rayon mərkəzi xəstəxanasının 2013-cü ilin avqust ayından başlayan əsaslı təmiri hesabat dövründə də davam etdirilmişdir.

Rayon mədəniyyət və turizm şöbəsi öz işini günün tələbləri səviyyəsində qurmağa çalışaraq bu sahədə bir sıra tədbirlər həyata keçirmişdir. Hesabat dövrü ərzində tarixi hadisələr, bayramlar və yubileylərlə bağlı maraqlı mədəni-kütləvi tədbirlər təşkil olunmuşdur. Keçən dövr ərzində diqqəti cəlb edən böyük miqyaslı tədbirlər - 20 Yanvar, Xocalı faciələrinin ildönümləri, 8 Mart Beynəlxalq qadınlar günü, Novruz bayramı və digər tarixi və əlamətdar günlərlə bağlı təşkil olunan tədbirlər yaddaqalan olmuşdur.

Rayonun Hüseyn Cavid adına Mədəniyyət və İstirahət Parkında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91 illik yubileyinə həsr edilmiş geniş və maraqlı konsert proqramı hazırlanmış, rayon Dövlət rəsm qalereyasında həvəskar rəssamların təsviri sənət əsərlərindən ibarət sərgi təşkil edilmişdir.

Hesabat dövründə Heydər Əliyev Mərkəzinin tikintisi yekunlaşaraq istifadəyə verilmişdir. Mərkəzin açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmişdir. Mərkəzdə Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən foto və eksponatlar sərgilənir. Burada həmçinin elektron kitabxana, xalçaçılıq və toxuculuq, rəqs və xalq çalğı alətləri dərnəkləri fəaliyyət göstərəcəkdir.

Hesabat dövrü ərzində rayon gənclər və idman idarəsi tərəfindən də bir sıra tədbirlər həyata keçirilmişdir.

Ümummilli Lider H.Əliyevin anadan olmasının 91-ci ildönümü ilə əlaqədar rayon gənclərinin iştirakı ilə "Ümummilli Lider Heydər Əliyev irsinin öyrənilməsi və təbliği" mövzusunda "Dəyirmi masa", Ulu Öndərin xatirəsinə həsr olunmuş mini-futbol üzrə rayon birinciliyi maraqlı olmuşdur.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin çağırışla bağlı sərəncamlarına uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsi 2014-cü ilin altı ayında nəzərdə tutulmuş çağırışçıların hərbi xidmətə cəlb olunmasını təmin etmişdir. 2014-cü ilin 6 ayı ərzində rayon polis şöbəsi tərəfindən rayon üzrə müxtəlif xarakterli 48 cinayət hadisəsi qeydə alınmışdır. Ümumilikdə qeydə alınmış cinayətlərin açılması 100 % təşkil edir. Rayon üzrə ümumi cinayətlərin sayı 2013-cü ilin 6 ayına nisbətdə 2014-cü ilin birinci yarısında 2 cinayət faktı az olmuşdur.

Qeyd olundu ki, 2014-cü ilin birinci yarısında rayon icra hakimiyyəti başçısı aparatı ərazidə nizam-intizamı, qanunu möhkəmləndirmək, kadrların tapşırılmış iş üçün məsuliyyət hissini artırmaq məqsədilə yerli icra orqanları ilə öz işini əlaqədə qurmuşdur. İlin I yarısında icra hakimiyyəti başçısı tərəfindən qrafikdə nəzərdə tutulan 24 səyyar görüş və qəbuldan 23-ü keçirilmiş və bu görüşlərdə 2475 nəfər iştirak etmişdir. Keçirilən görüşlərdə 122 nəfər 78 tənqidi qeyd və təkliflə çıxışlar etmişdir ki, bunlardan 13-ü meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, 14-ü yol və körpülərin inşası və ya təmiri, 1-i tibb müəssisələrinin təmiri və inşası, 3-ü təhsil müəssisələrinin təmiri və ya inşası, 12-si elektrik təsərrüfatının yenidən qurulması, 12-si "mavi yanacaq", 9-u içməli su ilə təminat, 1-i kanalizasiya sisteminin yaradılması və yenidən qurulması, 3-ü abadlıq və quruculuq işlərinin aparılması və 10-u digər məsələlərdən ibarət olmuşdur. Vətəndaşlar tərəfindən qaldırılan tənqidi qeyd və təkliflər nəzarətə götürülmüş, həlli istiqamətində aidiyyəti üzrə müvafiq yuxarı orqan və təşkilatlar qarşısında məsələlər qaldırılmışdır. Həlli yerlərdə mümkün olan problemlərin aradan qaldırılmasından ötrü isə tədbirlər həyata keçirilmişdir

2014-cü ilin birinci yarısında rayon icra hakimiyyəti başçısı aparatına ümumilikdə 464 ərizə, şikayət və təklif daxil olmuşdur. O cümlədən Prezident Administrasiyasından 109, Milli Məclisdən 5, mərkəzi orqanlardan 33 ərizə daxil olmuşdur. 317 ərizə bilavasitə vətəndaşlar tərəfindən rayon icra hakimiyyətinə ünvanlanmışdır. Rayon icra hakimiyyətinə ünvanlanmış müraciətlər 2013-ci ilin birinci yarısı ilə müqayisədə 32 müraciət çoxdur.

2014-cü ilin birinci yarısında rayon icra hakimiyyəti başçısı tərəfindən 162 vətəndaş qəbul edilmişdir. Onlardan 39 nəfəri icra hakimiyyəti başçısı aparatında, 123 nəfəri isə səyyari qəbullarda həyata keçirilmişdir.

Aparılan geniş təhlillərdən sonra sözünə yekun vuran məruzəçi əminliklə vurğuladı ki, rayon icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin göstərişlərini, imzaladığı fərman və sərəncamları, Azərbaycan Respublikasının Qanunlarını əldə rəhbər tutaraq öz fəaliyyətini daha da genişləndirəcək, bütün sahələrdə inkişafa və tərəqqiyə nail olmaq üçün lazımi tədbirlər görəcəkdir.

Məruzə ətrafında müzakirələr də canlı və maraqlı keçdi. Rayon əhalinin əmək və sosial müdafiəsi mərkəzinin direktor əvəzi Zaur Kərimov, rayon suvarma sistemləri idarəsinin rəisi Elçin Əsədov və başqaları çıxış edərək rayon icra hakimiyyətinin ilin birinci yarısındakı fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı, öz işlərindən, həyata keçirdikləri tədbirlərdən də danışdılar.

Hesabat yığıncağında müzakirə olunan məsələ ilə əlaqədar geniş qərar qəbul edildi.

İclasın sonunda rayon ictimaiyyəti adından Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevə müraciət ünvanlandı.

Vladimir Jirinovski: "Azərbaycan postsovet məkanında ən yaxşı nümunədir"

Rusiya Liberal-Demokrat Partiyasının (RLDP) sədri, Dövlət Dumasında RLDP fraksiyasının rəhbəri Vladimir Jirinovski iyulun 24-də "Rossiya 24" telekanalına müsahibəsində suallara caablarının xeyli hissəsini Azərbaycana həsr edib.

Respublikanın nailiyyətlərinə heyran qaldığını bildirən V.Jirinovski Azərbaycanı postsovet məkanında dinamik inkişafın "gerçək müsbət nümunəsi" adlandırıb.

Ölkəmizin böyük nailiyyətlər əldə etdiyini vurğulayan V.Jirinovski deyib:

"Bütün kəndlər abadlaşdırılıb, yeni komplekslər, o cümlədən idman qurğuları inşa olunur, bütün ölkənin siması dəyişib. Nə üçün? Çünki rəhbəri düzgün seçiblər. Bu gün orada Prezident - İlham Heydər oğlu Əliyevdir".

İlham Əliyevi çiçəklənən Azərbaycanın müstəqil siyasət yürüdən güclü lideri kimi xarakterizə edən Rusiya Dövlət Dumasının deputatı deyib: "Çünki atası da onun kimi olub".

Azərbaycanın ümummilli lideri Heydər Əliyevi şəxsən tanıdığını bildirən RLDP sədri vurğulayıb: "O, böyük azərbaycanlı, parlaq və qeyri-adi şəxsiyyət idi".

RLDP fraksiyasının rəhbəri Rusiya-Azərbaycan əlaqələrinə də toxunaraq xüsusi qeyd edib ki, iki ölkənin dövlət başçılarının "əla münasibətləri var". O hesab edir ki, Rusiya Azərbaycana böyük diqqət yetirməlidir. V.Jirinovskinin sözlərinə görə, belə yanaşma onun ölkəsinin digər iki müsəlman dövləti - Türkiyə və İran ilə münasibətlərinin yaxşılaşmasına xidmət edəcək.

Azərbaycanda rus dilinə qayğıkeş münasibətə xüsusi diqqət yetirən V.Jirinovski deyib:

"Azərbaycanda 400 rus məktəbi var. Onların heç birini bağlamayıblar. Bakıda çox güclü rus teatrı, universitet fəaliyyət göstərir. Bu da sizə nümunə".

O qeyd edib ki, Azərbaycanda "Rusiya əleyhinə partiya yoxdur. Onların bizdən nə isə qoparmaq niyyəti yoxdur. Əksinə, onlar hər yerdə bizimlə münasibətləri düzəltməyə çalışırlar".

V.Jirinovski öz həmvətənlərinə müraciətlə, onları Azərbaycanın turizm imkanlarından geniş istifadə etməyə, gedib Azərbaycan kurortlarında dincəlməyə çağırıb. Bakını Paris ilə müqayisə edən V.Jirinovski vurğulayıb ki, gözəl Bakı möhtəşəm Avropa şəhəridir.

O deyib: "Bütün bunlar İlham Əliyevin sayəsində mümkün olub. O, çox yaxşı, savadlı və nəcib rəhbərdir".

SİZƏ MÜRACİƏT EDİRİK, ƏZİZ HƏMYERLİLƏR!

Neftçala bizimdirsə, onun gözəlliklərini də biz qorumalıyıq

Hər hansı nailiyyəti əldə saxlamaq ona nail olmaqdan daha çətindir deyib müdriklərimiz. Doğrudan da belədir. İllərlə, böyük zəhmətlə qurub yaratdıqlarını qoruyub saxlaya bilmirsənsə, deməli, müəyyən vaxtdan sonra o mütləq dağılıb gedəcək. Qoruyursansa, inkişaf etdirirsənsə, onda daha da gözəlləşəcək, yeni-yeni sevinclər gətirəcək insanlara.

Bir neçə il bundan qabağa kimi Neftçala ilə digər rayonları, şəhərləri müqayisə edəndə daxili bir narahatlıq hissi keçirdiyimizi yaddan çıxarmamalıyıq. Həmin vaxtlarda sual doğurdu içimizdə: görəsən biz nə vaxt rayonumuzu, şəhərimizi yeni libasda, yeni görkəmdə görəcəyik? Neftçalada quruculuq işlərinə başlananda buna adi görüntü kimi baxanlar da oldu. Amma günlər keçdikcə, başlanmış işlər yeni vüsət aldıqca fikirlər dəyişməyə başladı. Gördülər ki, başlanmış işlər müvəqqəti xarakter daşımır, əksinə, gündən-günə genişlənir, yeni vüsət alır.

Vaxtı ilə qonaq gələndə xəcalət çəkdiyimiz, ona göstərmək üçün nümunəvi bir yer tapmadığımız şəhərimizdə vəziyyət tamam başqadır. Qonağımızı görməli yerlərlə, Kür sahilindəki Bulvarla, Bayraq meydanı ilə, birbirindən yaraşıqlı parklarımızla, digər görməli, baxmalı yerlərlə tanış edəndə istər-istəməz sevinirik, qürur hissi keçiririk. Onlara qurulacaq Olimpiya Mərkəzindən, "Axmaz" gölünün sabahından, nümunəvi xəstəxana şəhərciyindən və başqa görüləcək işlərdən danışırıq.

Bir neçə il bundan qabaq axşamlar şəhərə çıxsaydın çox az sayda insana rast gələrdin. İndi isə tamam əksinədir. Axşamlar qaynarlıq, gurluq gündüzkündən daha çox

olur. Özü də təkcə Kür sahilindəki Bulvarda, Bayraq meydanında deyil, elə Heydər Əliyev Mərkəzinin ətrafı, rayon icra hakimiyyətinin qarşısı, Ulu Öndərin adını daşıyan prospekt də adamlarla dolu olur. Yaşıllıqlar, çiçəkliklər arasında gəzişən adamlar yorulanda səliqəli skamyalarda əyləşərək dincəlir, təmiz hava alır, şirin söhbət edirlər. Gecəsinin gündüzündən ayrılmadığı çıraqban şəhərimizə baxdıqca baxmaq istəyirsən. Bu gözəllikləri, rahatlığı yaradanların atalarına rəhmət, özlərinə isə can sağlığı arzulayırsan. Qəlbindən, ürəyindən istər-istəməz səmimi minnətdarlıq duyğuları keçir. Niyə də keçməsin?! Bütün bunların hamısı bizim üçün yaradılıb. Onlar burada qalacaq, bizə xidmət göstərəcək. Hələ neçəsi də qurulub yaradılacaq, şəhərimiz, rayonumuz daha gözəl, daha yaraşıqlı olacaq.

Bu quranların, yaradanların işidir, sağ olsunlar, min yaşasınlar. Bəs biz necə, böyük əziyyətlə qurulub yaradılan bu gözəllikləri qoruya bilirikmi? Desək ki, yox, bu, ədalətsizlik olar. Ancaq laqeydlik göstərənlər, biganə olanlar da az deyil. Çox təəssüf ki, belələri də var. Gərək belə olmasın! Gərək hər birimiz ətrafda baş verənlərə, o cümlədən qurulanların, yaradılanların qorunmasına, rayonumuzun, şəhərimizin daim təmiz, səliqə-sahmanlı qalmasına diqqətli olaq. Valideyninin gözü qarşısında uşaq bulvardakı, yaxud parkdakı yaşıllığı tapdalayırsa və onlar da bundan narahat olmurlarsa, buna yalnız bir ad vermək olar: biganəlik. Uşağı qınamaq olmur, uşaqdır, ağlı kəsmir, bəs ətrafdakı böyüklərə nə deyəsən? Bir çox hallarda onlar özləri də ətrafı korlayırlarsa, bəs buna nə ad verək? Ən pisi odur ki, heç kim də buna heç nə demir, iradını, etirazını bildirmir. İctimai qınaq deyilən çox güclü təsir vasitəsi özünü göstərməlidir. Çox təəssüf ki, bunu görmürük. Halbuki, bu çox vacibdir. Dünyanın bütün mədəni xalqları nəinki öz soydaşlarını, onların yaşadıqları ərazilərə qonaq gələn insanları da çox vaxt intizamsız hərəkətlərdən məhz bu vasitə ilə çəkindirirlər.

Bəs bizdə niyə belə olmasın? Niyə biz ətrafda baş verən neqativ hallara qarşı gözümüzü yumaq, laqeyd qalaq? Ağaclar tələf olsun, dayanıb baxaq, yaşıllıq korlansın, gözümüzü yumaq, işıq lampaları sındırılsın, seyr edək. Bütün bu xoşagəlməz hallara etinasızlıqdan, biganəlikdən başqa nə ad vermək olar?! Biganəlik isə çox pis keyfiyyətdir. Ondan özümüzü qorumalıyıq.

Rayon icra hakimiyyətində keçirilən sonuncu şura iclasında haqlı olaraq rayon rəhbəri də bu məsələyə toxunaraq ciddi narahatlığını bildirdi. İnsanları, rayon fəallarını ətrafda baş verənlərə qarşı daha diqqətli olmağa çağırdı. Qeyd etdi ki, hər kəs cəmiyyət qarşısındakı borcunu, vətəndaş məsuliyyətini, neftçalalı olduğunu dərindən dərk etməlidir.

Çox yerində deyilmiş sözlərdir. Neftçala bizimdirsə, onu biz də qorumalıyıq. Bu günkü gözəlliyə, səliqə-sahmana baxanda dünənimizi də unutmamalıyıq. Unutmamalıyıq ki, bu günü çox gözləmişik, çox arzulamışıq. Onu qiymətləndirmək, qorumaq, daha da gözəlləşdirmək hər birimizin borcudur. Adi neftçalalı borcu, neftçalalı təəssübü.

"GÜNDOĞAR"

Rayon icra hakimiyyəti başçısı adından iftar süfrəsi

Dini mərasimlərin, ayinlərin içərisində orucluğun, orucluq ayının öz yeri, öz şərəfəti var. Təsadüfi deyildir ki, Ramazan ayına ayların tacı, sultanı da deyirlər.

Qurani-Kərimin yer üzünə məhz bu ayda nazil olması onun fəzilətini, şərafətini daha da artırır. İnsanlar oruc tutmaqla, ibadət etməklə daxili aləmlərini, mənəviyyatlarını daha da nurlandırır, paklandırırlar. Mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbəsini, sevincini yaşayan insanlar yayın

belə isti, qızmar günlərində Böyük Yaradanın qarşısındakı borclarını layiqincə yerinə yetirdiklərindən qürur duyurlar. Orucluğun başlandığı gündən müntəzəm küləklərin əsməsi, havaların nisbətən sərinləşməsi də Allahın hikmətlərindəndir. Bunu görməmək, duymamaq sadəcə mümkün deyil.

İyulun 17-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında verdiyi iftar süfrəsində dövlətimizin başçısı cənab İlham Əliyevin iştirakı ölkəmizdə dini dəyərlərə dövlət səviyyəsində verilən yüksək qiymətin bariz nümunəsidir. Mərasimdə çıxış edən möhtərəm Prezidentimiz Azərbaycanın dünyəvi dövlət olduğunu diqqətə çatdırmaqla yanaşı eyni zamanda milli və dini ənənələrə sadiqliyini də vurğuladı. Bildirdi ki, dini dəyərlər xalqımızın millimənəvi dəyərlərinin tərkib hissəsidir və onları bir-birindən ayırmaq olmaz. Müqəddəs Ramazan ayı münasibətilə dünyanın bütün müsəlmanlarını təbrik edən dövlətimizin başçısı Azərbaycan xalqını bir daha əmin etdi ki, bundan sonra da ölkənin inkişafı, təhlükəsizliyin təmin olunması, milli-mənəvi və dini dəyərlərin qorunması üçün lazım olan bütün tədbirləri görəcəkdir.

Rayonumuzun möminləri də Allah qarşısındakı müqəddəs borclarını layiqincə yerinə yetiriblər. Oruc tutublar, Vətən uğrunda canlarını qurban verən şəhidlərimizin ruhlarına dualar ediblər, xalqımızın firavanlığı üçün arzu və diləklərini bildiriblər. Müqəddəs Ramazan ayı insanlar arasındakı birliyin, həmrəyliyin daha da möhkəmlənməsinə xidmət edib.

İyulun 23-də şəhərin "Bakı" şadlıq sarayında rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin adından verilən iftar süfrəsi bunu bir daha əyani şəkildə göstərdi. Mömin insanlar buraya böyük məhəbbət hissilə gəlmişdilər. Onların xeyli hissəsini qadınlar təşkil edirdi. Rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqova və digər sahələrdə çalışan qadınlar da burada idilər.

Salonda böyük sevinc yaşanırdı. Bu təbii idi. Yayın belə istisində, günün ən uzun vaxtında çətinlikləri dəf edərək oruclarını uğurla başa vurmaqda olan mömin insanlar sevinclərini bölüşür, Allaha şükranlıq edir, bir-birlərinə xoş günlər, ruzi-bərəkət arzulayırdılar.

Təyin olunan vaxtda rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev də salona daxil oldu. Rayonun rəhbər işçiləri də onunla birlikdə idilər. Salona toplaşanlar rayon rəhbərini səmimiyyətlə salamladılar.

Mərasimi açan Qafqaz Müsəlmanları İdarəsinin Neftçala bölgəsi üzrə qazisi Mirseymur Əliyev ilk öncə ölkəmizdə dini dəyərlərə yüksək qiymət verildiyini, insanların dini etiqadlarına hörmətlə yanaşıldığını diqqətə çatdırdı. Qeyd etdi ki, iyulun 17-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə təşkil etdiyi iftar süfrəsində Prezident İlham Əliyevin iştirakı da dinimizə, islami dəyərlərə hörmətdən, ehtiramdan irəli gəlir. Sonra rayon rəhbəri adından verilən iftar süfrəsini də yüksək dəyərləndirdi. Bildirdi ki, bu həm də rayonumuzdakı birliyin, həmrəyliyin bariz nümunəsidir. Salona toplaşan möminləri qarşıdan gələn Ramazan bayramı münasibətilə ürəkdən təbrik edən Mirseymur Əliyev onlara firavanlıq və xoş günlər arzuladı.

İftar süfrəsinə toplaşan möminlər xalqımızın xoşbəxtliyi, ölkəmizin əmin-amanlığı üçün dualar oxudular, Qadir Allahdan diləklərini etdilər.

Dualar başa çatdıqdan sonra iftar süfrəsi açıldı. Hamı stolların üzərinə düzülən təamlardan daddı. Möminlər belə gözəl gündə bir yerə toplaşdıqlarına, müqəddəs Ramazan ayının bu gününü birlikdə yaşadıqlarına görə Ulu Yaradana şükürlər etdilər.

Orduya yay çağırışı

Müstəqilliyimizin əldə olunmasından 23 il ötür. Ötən bu müddətdə iqtisadiyyatın, elm və mədəniyyətin ayrı-ayrı sahələrində böyük uğurlara nail olmuşuq. Azərbaycan yüksək inkişaf səviyyəsinə görə Cənubi Qafqazın lider dövlətinə çevrilib. Şübhəsiz, bu inkişaf ordu quruculuğuna, ölkənin müdafiə qüdrətinin möhkəmlənməsinə də öz müsbət təsirini göstərməyə bilməz. Ən müasir silahlarla təchiz olunan Azərbaycan ordusu sözün əsl mənasında bu gün xalqın güvənc yerinə çevrilmişdir. Ordumuz nəinki ərazimizi müdafiə etməyə, eyni zamanda itirilmiş torpaqlarımızı da qısa vaxtda geri almağa, düşmənə sarsıdıcı zərbələr endirməyə qadirdir.

Ordu quruculuğunda, onun möhkəmləndirilməsində digər amillərlə yanaşı hərbi çağırışların vaxtında və keyfiyyətlə yerinə yetirilməsi də çox mühüm rol oynayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 iyun 2014-cü il tarixli "Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında"kı sərəncamı da bununla bağlıdır. Artıq sərəncamda nəzərdə tutulmuş müddət başa çatıb. Bəs qarşıya qoyulan vəzifə necə yerinə yetirilib?

Turan ƏLİYEV, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Neftçala rayon şöbəsinin rəisi

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Neftçala rayon şöbəsinə gəlişimizdən məqsəd də bu suala cavab almaq idi. Şöbədə rəhbərliyin dəyişməsi vəziyyəti də müsbətə doğru xeyli dəyişmişdi. Nizam-intizam möhkəmləndirilmiş, məsuliyyət hissi daha da artırılmışdı. Öyrəndik ki, şöbənin rəisi Turan Əliyev ali təhsilini başa vurduqdan sonra taleyini həmişəlik bu sahə ilə bağlamışdır. Bundan əvvəl Quba rayonundakı və Mingəçevir şəhərindəki səfərbərlik və hərbi xidmətə çağırış şöbələrində məsul vəzifə daşıyan Turan Əliyev hazırda mayor hərbi rütbəsində Neftçala rayon şöbəsinə rəhbərlik edir. Söhbət zamanı o suallarımıza aydınlıq gətirərək dedi:

— Həqiqi hərbi xidmət keçərək, Vətəni, onun hər qarış torpağını göz bəbəyi kimi qorumaq gənclərin qarşısında duran ən mühüm vəzifədir. Xidməti borclarını yerinə yetirərək ehtiyata buraxılan şəxslərin yeri yeni çağırışla orduya yola salınan gənclərin hesabına komplektləşdirilir. Bu mühüm, təxirəsalınmaz işin yerinə yetirilməsi ilə isə bilavasitə respublika Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti məşğul olur. Şöbəmiz də bu qurumun tərkibində olduğundan məsələyə biz də böyük məsuliyyətlə yanaşır, üzərimizə düşən vəzifəni həmişə layiqincə yerinə yetirməyə çalışırıq.

Cari ilin orduya yay çağırışı kompaniyasını da uğurla başa çatdırmışıq. Verilən plan və tapşırıq layiqincə yerinə yetirilib. Bunun üçün ilk öncə rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevə minnətdarıq. Dövlət başçısının ali sənədinə uyğun olaraq rayon rəhbərinin imzaladığı sərəncam, müvafiq şəxslərə verdiyi tapşırıqlar bu işdə çox mühüm rol oynamışdır. Bununla yanaşı inzibati dairələrdəki ərazi nümayəndəlikləri də çağırışın uğurla başa çatması üçün lazım olan bütün tədbirləri vaxtında görmüşlər. Onların hər birindən razıyıq, heç birini fərqləndirmək istəmirəm. Çağırış zamanı ordudan yayınma hallarının olmaması da aparılan kütləvi izahat işləri ilə bağlıdır.

Burada çağırışçılar, onların valideynləri də məsuliyyətlidirlər. Övladlarını ordu sıralarına yola salan validenlər bundan sevindikləri kimi, gənclər də Vətənin keşiyinə yollandıqlarından qürur duyurlar. Çağırışçılardakı Vətən sevgisi, torpağa, yurda məhəbbət bizi çox sevindirir. Əminik ki, onlar nümunəvi əsgər olacaq, komandirlərinin tapşırıqlarını canla, başla yerinə yetirəcək, doğma Neftçalaya başucalığı gətirəcəklər. Başqa cür ola da bilməz. Böyük Vətən müharibəsində, Qarabağ uğrundakı döyüşlərdə əsl qəhrəmanlıq, şücaət göstərən igid ataların, babaların övladları, nəvələri də lazım gəlsə bu qəhrəmanlıqları təkrarlamağa qadirdirlər.

Birgə səy, göstərilən kömək sayəsində növbəti çağırışı da uğurla başa vurduq. Əvvəlki illərdən fərqli olaraq indi çağırışçılar harada, hansı ünvanda xidmət edəcəklərini qabaqcadan bilirlər. Bununla əlaqədar lazımi yerlərə siyahılar vurulur, çağırışçılara və onların valideynlərinə ətraflı məlumat verilir. İnanırıq ki, yola saldığımız neftçalalı gənclər xidməti borclarını layiqincə yerinə yetirməklə doğma rayonumuza alnıaçıq-üzüağ qayıdacaqlar.

MİLLİ MƏTBUAT GÜNÜ NEFTÇALADA DA QEYD OLUNDU

Rayon rəhbəri bu sahədə çalışan işçiləri qəbul etdi

Son illər ölkəmizdə ümumxalq bayramları ilə yanaşı peşə bayramlarının qeyd olunması da ənənə halını almışdır. Belə bayramlardan biri də iyulun 22-də böyük sevincini, fərəhini yaşadığımız Milli Mətbuat Günüdür.

Əsası 1875-ci ildə böyük ziyalı Həsən bəy Zərdabi tərəfindən qoyulan "Əkinçi" qəzeti xalqın tərəqqisində, milli

şüurun oyanmasında və yüksəlməsində, cəmiyyətin mariflənməsində müstəsna xidmətlər göstərmişdir. Ötən dövr ərzində "Əkinçi" ənənələrindən bəhrələnən Azərbaycan milli mətbuatı zəngin və şərəfli yaradıcılıq yolu keçərək daha da inkişaf etmiş, bu günkü səviyyəsinə gəlib çatmışdır.

Respublika milli mətbuatının ayrılmaz tərkib hissəsi olan "Gündoğar" qəzeti də 83 illik fəaliyyəti dövründə çoxlu çətinliklərlə, maneələrlə qarşılaşmasına baxmayaraq heç vaxt yolundan dönməmiş, ardıcıl olaraq rayonumuzun tarixi salnaməsini özündə əks etdirmişdir. Mübariz ənənələrinə sadiq qalan qəzet bu gün də dövlətimizin və dövlətçiliyimizin möhkəmlənməsinə xidmət edir, doğma Neftçalanın ictimai-siyasi həyatını hərtərəfli əks etdirməyə çalışır. "Gündoğar"ın rayonumuzda daim diqqət mərkəzində olmasının, qayğı ilə əhatə olunmasının əsas səbəbi də elə bununla bağlıdır.

Bunu iyulun 22-də — Milli Mətbuat Günündə bir daha gördük. Həmin gün rayon icra hakimiyyətində keçirilən səmimi görüş unudulmaz oldu.

Görüşdən əvvəl mətbuat işçiləri Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gələrək buraya tər çiçəklər düzdülər, Ulu Öndərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər. Rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqova da onlarla birlikdə idi.

Sonra rayonun mətbuat işçilərini qəbul edən rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev ilk öncə onları əziz bayramları münasibətilə ürəkdən təbrik etdi, jurnalistlərə yeni yaradıcılıq uğurları arzuladı. Sonra mətbuata Ulu Öndər Heydər Əliyevdən başlanmış qayğı və diqqətin Prezident İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirildiyini qeyd edən rayon rəhbəri Neftçalada da belə olacağını, "Gündoğar" qəzetinin lazımi səviyyədə çıxması üçün bundan sonra da müvafiq tədbirlərin görüləcəyini vurğuladı. Daha sonra qəzetin elektron saytının hazırlanmasının zəruriliyini diqqətə çatdıran rayon rəhbəri bununla əlaqədar özünün tapşırıq və tövsiyələrini də verdi.

Tədbirdə iştirak edən rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini, "Gündoğar"a daim diqqət göstərən Gültəkin xanım Sadıqovanın çıxışı da səmimi qarşılandı. Sonda o da rayonun mətbuat işçilərini təbrik edərək onlara yaradıcılıq uğurları, can sağlığı arzuladı.

Belə xoş gündə mətbuat işçilərinin əməyinin qiymətləndirilməsi də unudulmamışdı. Onlara rayon icra hakimiyyətinin Fəxri fərmanlarının və qiymətli hədiyyələrin təqdim olunması kollektivin bayram sevincini daha da artırdı.

"Gündoğar" qəzetinin baş redaktoru, respublikanın Əməkdar jurnalisti Habil Əsədov çıxış edərək mətbuatın inkişafına göstərdiyi böyük qayğı və diqqətə görə dövlətimizin başçısı cənab İlham Əliyevə səmimi minnətdarlığını bildirdi. Qeyd etdi ki, respublikanın digər mətbuat nümunələri kimi "Gündoğar" qəzeti də bu qayğı və diqqətdən qaynaqlanaraq inkişaf edir. Bununla yanaşı o, qəzetin təsisçisinə — rayon icra hakimiyyətinə, onun başçısı hörmətli İsmayıl Vəliyevə, aparatın müvafiq şöbələrinə də minnətdarlıq etdi. Bildirdi ki, onların yaxından köməyi və dəstəyi olmasaydı, yəqin ki, "Gündoğar"ı müntəzəm çıxarmaq, abunəçilərə vaxtında çatdırmaq mümkün olmazdı.

Daha sonra qarşıda duran vəzifələrdən danışan Habil müəllim "Gündoğar" qəzetinin bundan sonra da dövlətçiliyə həmişə sadiq olacağını, Ulu Öndər Heydər Əliyevin siyasi irsinin, möhtərəm Prezidentimiz İlham Əliyevin genişmiqyaslı fəaliyyətinin və rayonun ictimai-siyasi həyatının daha dərindən işıqlandırılması üçün yeni rubrikaların açılacağını, bir sıra tədbirlərin həyata keçiriləcəyini diqqətə çatdırdı.

Bizi təbrik edirlər

Rüstəm MƏLİKOV — Salyan rayonu, "Qələbə" qəzetinin baş redaktoru, Ali Media Mükafatı laureatı:

- Əziz qələm dostlarımız! Təməl daşı 1875-ci ildə böyük maarifçi Həsən bəy Zərdabi tərəfindən "Əkinçi" qəzeti ilə qoyulan Milli Mətbuat Günümüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, hər birinizə yeni yaradıcılıq uğurları və xoş günlər arzulayıram.

Qonşu Neftçalada dərc olunan "Gündoğar" qəzetinin bütün nömrələrini alır və maraqla oxuyuruq. Qəzetinizdə çap olunan informasiyalar, müxtəlif xarakterli yazılar peşəkar qələm nümunələri kimi diqqəti həmişə cəlb edir. Uğurlarınız bizi həmişə sevindirir. "Gündoğar" respublikamızın ən yaxşı rayon qəzetlərindəndir desəm, yəqin ki, yanılmaram. Şübhəsiz ki, buna asanlıqla nail olmamısınız. Böyük zəhmət çəkmisiniz bu yolda. Milli mətbuat xalqımızın tarixində yeni bir mərhələ, oyanış dövrüdür. Həsən bəy Zərdabinin "Əkinçi" ilə səpdiyi ziya toxumları müstəqillik dövründə daha sürətlə inkişaf edərək bu günkü parlaq bəhrələrini verməkdədir. Sevinirik ki, "Gündoğar" qəzeti də inkişafının yeni mərhələsini, yeni dövrünü yaşayır, dövlətə və dövlətçiliyimizə xidmət edir.

Milli Mətbuat Gününüz, mətbuat bayramınız bir daha mübarək olsun deyirik, əziz həmkarlar!

Əjdər KƏRİMOV — rayon təhsil şöbəsinin müdiri:

- Hörmətli Habil müəllim! Sizi 22 iyul Milli Mətbuat Günü münasibətilə rayonun təhsil işçiləri adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Bu gün Sizin rəhbərliyiniz altında dərc olunan "Gündoğar" qəzeti 80 ildən çoxdur ki, rayonumuzun bütün sahələrinin, o cümlədən təhsil sahəsinin də inkişaf salnaməsini yaradır, insanların maariflənməsində, yüksək mənəvi keyfiyyətlərə yiyələnməsində gözəl təbliğat tribunası rolunu oynayır. Gənc nəsillərin hər bir uğuru, yüksəlişi, sevinc və qayğıları həmişə "Gündoğar"da öz əksini tapır, qəzet onların sabaha qanadlanmasında danılmaz mövqe nümayiş etdirir, onları yeni uğurlara imza atmağa ruhlandırır.

Milli Mətbuat Günü münasibətilə Sizə və "Gündoğar"ın yorulmaz kollektivinə daha yüksək nailiyyətlər və yaradıcılıq uğurları arzulayırıq.

Oqtay RZA — Şair, alim, Azərbaycanın Əməkdar müəllimi, beynəlxalq Rəsul Rza və "Qızıl qələm" mükafatı laureatı:

- Hörmətli redaksiya! Uzun on illiklər boyu mən də sizin redaksiya ilə yaxın əlaqə saxlamış, qəzetinizin keçdiyi uğurlu inkişaf yolunu izləmişəm. Təqdirəlayiq haldır ki, rayonun ictimai-siyası həyatı ilə birgə Neftçalanın ədəbi həyatı da bu qəzetdə öz parlaq əksini tapmış, rayonda yaşayıb-yaradan ziyalıların bütöv bir məktəbini yaratmışdır. 1975-ci ildən qəzetin nəzdində fəaliyyət göstərən "Xəzər nəğmələri" ədəbi birliyinin bir çox üzvlərinin səsi-sorağı hələ ötən əsrin 70-ci illərində respublikaya yayılmış, öz layiqli qiymətini almışdır. Soltan Abbas, Narınc Xatun, Məhəmməd Tağıyev, Zərxanım Ülvi, Ənvər Qənbəroğlu, Müzəffər Məzahim, Zabil Pərviz, Cəmaləddin Əjdəroğlu, Rəfael Ərəstunoğlu, İmamverdi Zeynalov, Atamalı Talıboğlu, Narıngül Sadiq, Zaur Ərmuğan kimi şair və yazıçıları bu gün çoxları tanıyır, əsərlərini oxuyurlar. Onları ətrafına toplayan, pərvazlandıran, düzgün yaradıcılıq istiqamətinə yönəldən və xalqa tanıtdıran ilk növbədə "Gündoğar" qəzeti, onun nəzdində fəaliyyət göstərən "Xəzər nəğmələri" ədəbi birliyi olmuşdur.

Yaradıcı adam olduğuma görə mən də Milli Mətbuat Günü münasibətilə Sizi ürəkdən təbrik etməyi özümə borc bildim. Həmişə sağlam vətəndaş mövqeyində dayanın. Kollektivinizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Əlixan ƏLİYEV — rayon veteranlar şurasının sədri:

- Əziz redaksiya kollektivi! Sizi 22 iyul Milli Mətbuat günü münasibətilə təbrik etməyə, elə bilirəm mənim haqqım daha çoxdur. Yaşı doxsanı ötmüş bir döyüşçüyəm. "Gündoğar" qəzetinin həyatımda özünəməxsus silinməz izləri, xidmətləri vardır. Bu gün rayon mətbuatının ən yaşlı oxucularından biriyəm desəm, yəqin ki, buna heç kəsin şübhəsi olmaz. "Gündoğar" Vətən, vətəndaşlıq, vətənpərvərlik prinsiplərini həmişə döyüş bayrağı kimi başı üzərində dalğalandırıbdır. Rayonun qocalı-cavanlı bütün müharibə veteranları üçün bu qəzetin səhifələri həmişə açıq olubdur. Təkcə 9 may Qələbə Günündə deyil, ilin bütün aylarında, günlərində alovlu vətənpərvərlik eşqi ilə dolu yazılar, məqalələr "Gündoğar"ın səhifələrində özünə layiq yer tutmuşdur. Bu qəzetin hərbi vətənpərvərlik mövzusundakı silsilə yazıları gənc nəslin tərbiyəsində, onların Vətən sevgisində çox mühüm rol oynayır. Dünya görmüş ağsaqqal, veteran kimi bunun dəfələrlə canlı şahidi olmuşam. "Gündoğar"ın bütün əməkdaşları mənim ən yaxın dostlarımdır. Vətənin, vətənpərvərliyin yorulmaz təbliğatçıları olan sizləri peşə bayramınız münasibətilə ürəkdən təbrik edirəm. Vətənpərvərlik mövzularındakı yazılarınız bundan sonra da həmişə coşub çağlasın.

Su hövzələrində təhlükəsizliyə həsr olunmuş tədbir

Hər fəsil özünəməxsus xüsusiyyətləri, özəllikləri ilə fərqlənir. Yay ayları da belədir. İlin bu fəslində havalar istiləşdiyindən insanlar kölgəliklərdə dincəlməyə, sərinlənməyə daha çox üstünlük verirlər. Sərinlik gətirən belə yerlərdən

biri də çimərliklərdir. Amma burada qaydalara düzgün əməl olunmayanda ciddi problemlər, faciələr də yaşana bilir. Neçə-neçə insan həyatı məhz çimərliklərdəki, su hövzələrindəki qaydaların pozulması nəticəsində sona yetmişdir. Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumlarının son vaxtlar keçirdikləri silsilə tədbirlər də məhz belə halların qarşısının alınmasına yönəldilmişdir.

Belə tədbirlərdən biri də bu günlərdə rayon icra hakimiyyətində keçirilmişdir. "Yay çimərlik mövsümündə su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması və çatışmazlıqların aşkar edilməsi" mövzusunda Fövqəladə Hallar Nazirliyi Muğan Regional Mərkəzinin təşkil etdiyi bu tədbirə inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri və digər əlaqədar təşkilatların nümayəndələri dəvət olunmuşdular.

Tədbiri rayon icra hakimiyyəti başçısının birinci müavini Dilavər Əliyev açaraq məsələnin əhəmiyyətindən danışmış, qarşıda duran vəzifələrə aydınlıq gətirmişdir.

Sonra "Dövlət sularda xilasetmə xidmətinin fəaliyyəti istiqamətləri", "Su hövzələrində təhlükəsizliklə bağlı tədbirlər" mövzularında müzakirələr olmuşdur. Muğan Regional Mərkəzinin operativ məlumat şöbəsinin rəisi, baş leytenant Vüqar Miri, mərkəzin mülki müdafiə işinin təşkili şöbəsinin zabiti, baş leytenant İdris Rzayev və Neftçala rayon sularda xilasetmə məntəqəsinin rəisi Ceyhun Xankişiyev mövzularla bağlı məlumatlar vermiş, təhlükəsizlik tədbirlərindən danışmışlar.

Yenikənd kənd inzibati dairəsi üzrə nümayəndəliyin ərazisi Xəzər dənizinə, çimərliklərə yaxın olduğundan burada qarşıya çıxan çətinliklər, həllini gözləyən problemlər daha çoxdur. İnzibati dairənin nümayəndəsi Abasqulu İsgəndərov da elə bu məsələlərdən danışmış, yaranmış problemlərlə bağlı öz fikirlərini bildirmişdir.

Rayon icra hakimiyyəti başçısının birinci müavini Dilavər Əliyevin toxunduğu məsələ — Müşfiq qəsəbəsi yaxınlığındakı çimərlikdə sularda xilasetmə məntəqəsinin olmaması daha ciddi müzakirələrə səbəb olmuşdur. İnsanların böyük əksəriyyəti bu ərazidəki çimərliyə gəldiyindən burada xilasetmə məntəqəsinin təşkili daha ciddi zərurətə çevrilir.

Muğan Regional Mərkəzinin əməkdaşları toxunulan problemlə əlaqədar yuxarı təşkilatlar və məsul şəxslər qarşısında məsələ qaldıracaqlarını, çimərlikdə məntəqənin təşkili üçün lazımi köməkliklərin göstəriləcəyini bildirmişlər.

Yeni dərs ili qarşısında

DAHA ÜÇ MÜASİR MƏKTƏBİN İSTİFADƏYƏ VERİLMƏSİ GÖZLƏNİLİR

Bir dərs ili də tarixə çevrildi. Müəllimlərin zəhməti, şagirdlərin səyi hədər getmədi, ayrı-ayrı sahələrdə bir sıra uğurlar əldə olundu, ötən illərdə qazanılmış nailiyyətlər daha da möhkəmləndi. Son illərdə rayon təhsilinin bir sıra göstəricilərə görə respublika səviyyəsinə yüksəlməsi hər birimizi ürəkdən sevindirir.

Ötən dərs ili də müsbət göstəricilərlə yadda qaldı. İlkin olaraq şagirdlər öz bilik və bacarıqlarını fənn olimpiadalarında sınadılar. Rayon olimpiadasının birinci mərhələsi 46 nəfər qalibi aşkara çıxardı. İkinci mərhələdə isə 7 nəfər fərqləndi və onlar respublika turunda iştirak etmək hüququ qazandılar. Bunlar Xıllı qəsəbə 1 saylı, Qədimkənd, Cəngən və Aşağı Surra kənd tam orta məktəblərinin şagirdləri idilər. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş inşa-yazı müsabiqəsinin qalibi isə Qırmızıkənd kənd tam orta məktəbinin IX sinif şagirdi Cavidan Allahverdizadə oldu. Cavidan təkcə rayon turunda deyil, respublika turunda da fərqlənərək IV yerə layiq görüldü.

"İstedadlı uşaqlar — 2014" festivalı da rayonumuz üçün uğurlu olmuşdur. Festivalda qalib gələn Cəngən kənd tam orta məktəbinin IX sinif şagirdi İlahə Rzayevanın respublika Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin diplomuna, embleminə və hədiyyələrinə layiq görülməsi hər birimizi ürəkdən sevindirir.

İmtahanlar şagirdlərin biliyinə əsas baxışdır. Onlar il boyu aldıqları bilik və bacarıqlarını, nəyə qadir olduqlarını məhz bu imtahanlarda nümayiş etdirirlər. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi buraxılış imtahanları xüsusilə məsuliyyətlidir. Bu imtahan nəticəsində 682 nəfər XI sinif şagirdinə attestat, 912 nəfər IX sinif şagirdinə isə ümumi orta təhsil səviyyəsi üzrə şəhadətnamə verilmişdir. Onbirincilərin ali məktəblərə keçirilən qəbul imtahanlarında müsbət nəticələrə nail olmaları onların yüksək biliyindən xəbər verir. Yeri gəlmişkən deyək ki, neftçalalı məzunlar ötən illki qəbul imtahanlarında da fərqlənərək yüksək nəticələrə nail olmuşdular. İnanırıq ki, məzunlarımızın bu ilki göstəriciləri xüsusilə yüksək olacaqdır.

Belə misalların sayını artırmaq olar. Ümumiyyətlə, ötən dərs ili rayonumuz üçün uğurlu olmuşdur. İndi əsas məsələ qarşıdan gələn yeni dərs ilinə hazırlıq, bununla əlaqədar nəzərdə tutulan işlərin, tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsidir.

Əsaslı təmirdən sonra gözəlləşərək müasirləşən Aşağı Surra kənd tam orta məktəbi

Kürkənd kəndində inşa olunan 200 şagird yerlik yeni məktəb binasının istifadəyə verilməsinə də çox qalmayıb

Yeni dərs ilində daha üç müasir məktəbin istifadəyə verilməsi gözlənilir. Hazırda bununla əlaqədar Yuxarı Qaramanlı və Kürkənd kəndlərində tikilən 360 və 200 şagird yerlik məktəblərdə lazımi tədbirlər həyata keçirilir. Aşağı Surra kəndindəki 360 yerlik tam orta məktəbin inzibati binası isə əsaslı təmir olunmaqla yanaşı, burada həm də əlavə olaraq 10 sinif otağı inşa olunur. Yeni məktəblərin istifadəyə verilməsi həmin təhsil ocaqlarında təlim-tərbiyə işinin daha yüksək səviyyədə qurulmasına şərait yaradacaqdır. Buna görə inşaatçılar çalışırlar ki, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə məktəbləri vaxtında tikib təhvil versinlər.

Rayon təhsil şöbəsindən aldığımız məlumatdan aydın oldu ki, yeni dərs ilinə hazırlıqla əlaqədar digər məktəblərdə də lazımi tədbirlər həyata keçirilir. Onlar cari təmir olunaraq qaydaya salınır. 1-ci sinifdə oxuyacaq şagirdlərin siyahısı dəqiqləşdirilir, onların valideynləri ilə yaxından əlaqə saxlanılır. Yeni dərsliklərin, lazımi avadanlıqların, texniki təlim vasitələrinin alınması istiqamətində də ardıcıl işlər görülür. Bir sözlə, indi qarşıda duran əsas vəzifələrdən biri də məktəblərin yeni dərs ilinə hazırlanmasıdır. Bu istiqamətdə işlər uğurla davam etdirilir.

Tükəzban HƏSƏNOVA,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

Respublika rəsm müsabiqəsinə rayonumuzda yekun vuruldu

UŞAQLAR DA ZƏRƏRLİ VƏRDİŞLƏRƏ YOX DEDİLƏR

Başlanmış bu günkü işləri sabah məktəblərimizdə yetişən, tərbiyə olunan şagirdlər, yeniyetmələr davam etdirəcəklər. Ona görə onların tərbiyəsi, Vətənimizə layiq vətəndaşlar kimi yetişmələri daim diqqət mərkəzində olmalıdır. Bu gün onların qayğı ilə əhatə olunmaları göz qabağındadır. Uşaqlar oxuyur, təhsil alır, müxtəlif tədbirlərdə iştirak edirlər. Görülən işlərə, həyata keçirilən tədbirlərə baxmayaraq yeniyetmələr arasında zərərli adətlərə meyl də az deyil. Bu isə onların asudə vaxtlarının daha səmərəli təşkilini, keçirilən tədbirlərin cəlbedici olmasını, uşaqlarda böyük maraq doğurmasını tələb edir. Son vaxtlar bu vacib məsələyə diqqətin durmadan artması da bununla bağlıdır. Bu gün insanların geniş şəkildə maarifləndirilməsinə, kütləvi izahat, təbliğat işlərinin həyata keçirilməsinə daha böyük ehtiyac var. Yaxşı haldır ki, bu vacib işdə dövlət təşkilatları ilə yanaşı ictimai təşkilatlar da fəal iştirak edir, bir-birindən maraqlı tədbirlər təşkil edirlər. Belə yaddaqalan tədbirlərdən biri də bu günlərdə rayonumuzda təşkil olunmuşdur. Havanın isti, bürkülü olmasına baxmayaraq Milli Mədəniyyətin Təbliği İctimai Birliyinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Biz pis vərdişlərə yox deyirik!" devizi altında məktəblilər arasındakı respublika rəsm müsabiqəsinin yekununa həsr olunmuş bu tədbirdə çoxlu sayda insan iştirak edirdi. Əksəriyyətini şagirdlər təşkil etsə də, onların arasında valideynlər, maraqlı insanlar da az deyildi.

Tədbiri rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqova açaraq belə zədi, dosent Jalə xanım Cəfərovaya verildi. İlk öncə göstərdikləri diqqət və qayğıya, yüksək təşkilatçılığa görə rayon rəhbərliyinə öz səmimi minnətdarlığını bildirən Jalə xanım tədbirin Neftçalada keçirilməsinin təsadüfi olmadığını da bildirdi. Qeyd etdi ki, müsabiqədə ən fəal iştirak edən neftçalalı uşaqlar ən yüksək nəticələrə də nail olduqlarından mərkəz kimi biz məhz buranı seçdik və gördüklərimizidən, eşitdiklərimizdən çox sevindik. Neftçala rayon kimi necə inkişaf edib yüksəlirsə, bu rayonun gənc sakinləri də o cür yetişərək uğurlar qazanırlar. Bununla yanaşı Jalə xanım Hacıqabul rayonunda, Şirvan şəhərində və digər yerlərdə müsabiqəyə göstərilən laqeydlikdən, etinasızlıqdan təəssüfləndiyini də dilə gətirdi.

Tədbirdə iştirak edən "Vətən uğrunda" qəzetinin baş redaktoru Hacı Rövşən Əhmədli, Mina Qurbanlarının Sosial-İqtisadi Problemlərinin Həllinə Kömək İctimai Birliyinin rəhbəri Məmmədhəsən Həsənov çıxış edərək ürək sözlərini bildirdilər. Onlar da neftçalalı şagirdlərin fəaliyyətindən, burada gənc nəslə göstərilən qayğı və diqqətdən ürək dolusu danışdılar, uğurların da məhz bu qayğı və diqqətdən qaynaqlandığını vurğuladılar.

Müsabiqənin nəticələri açıqlananda salonu alqış sədaları bürüdü. Məlum oldu ki, neftçalalı şagirdlər bütün nominasiyalar üzrə fərqlənərək qalib gəliblər. Günel Abdullayeva, Pərşan Əliyeva, Nurtəkin Sadıqova, Rauf Haxıyev daha yaxşı nəticə göstərdiklərinə görə müsabiqənin pul mükafatına layiq görüldülər. Digər fərqlənənlərə isə Birliyin Fəxri fərmanları təqdim olundu.

Maraqlı idi ki, rayon icra hakimiyyəti başçısının müavini Gültəkin xanım Sadıqova da Fəxri fərman alanların sırasında idi. Gültəkin xanım bu mükafata tədbirin təşkilində yüksək təşkilatçılığına görə layiq görülmüşdü.

Rəsmi hissə başa çatdıqdan sonra tədbir Birliyin təşkil etdiyi çay süfrəsi ətrafında davam etdirildi. Burada da səmimi söhbət oldu. Jalə xanım şəhər 2 saylı tam orta məktəbinin direktoru Aygün Abdullayevanın adını hörmətlə çəkdi. Dedi ki, bu məktəbin şagirdləri müsabiqədə daha fəal iştirak ediblər. Respublikamızın ayrı-ayrı şəhər və rayonlarından gəlmiş uşaqlar yaxından tanış oldular, bir-birlərinə ünvan verdilər, xatirə şəkilləri çəkdirdilər. Bu maraqlı tədbir böyüklərin də, kiçiklərin də xatirəsində unudulmaz gün kimi qaldı.

Murad ƏHMƏDOV

ÜRƏKLƏRDƏ YAŞAYAN SƏNƏTKAR

Azərbaycan özünün görkəmli sənətkarları, aktyorları ilə həmişə fəxr edir, belə sənətkarların əməyini yüksək qiymətləndirir. Onlar həm teatrda, həm də kino sahəsində bir-birindən gözəl rollar, obrazlar yaratmış, xalqın

qəlbində əbədiyaşarlıq haqqı, hüququ qazanmışlar. Bütün xalqının, elinin, obasının dərin hörmətini, sevgisini qazanan belə sənətkarlardan biri də Lütfəli Abdullayevdir. Prezident İlham Əliyev onun məhz bu keyfiyyətlərini, xalq qarşısındakı böyük xidmətlərini nəzərə alaraq 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdı.

Sərəncama müvafiq olaraq respublikamızın hər yerində olduğu kimi rayonumuzda da müvafiq işlər görülmüşdür. Milli Qəhrəman Xanoğlan Məmmədovun adını daşıyan şəhər mədəniyyət və incəsənət sarayında rayon mədəniyyət və turizm şöbəsinin keçirdiyi tədbir bu cəhətdən xüsusilə maraqla qarşılandı. Sarayın salonuna xeyli sayda rayon sakininin toplaşması da bununla bağlı idi. Tədbirdə eyni zamanda Milli Kino Günü də qeyd olunmuşdur. Əslində ölməz aktyor Lütfəli Abdullayevi kinosuz təsəvvür etmək mümkün deyildir.

Qeyd olunmuşdur ki, ən məşhur, uğurlu və uzun ömürlü tamaşalarda çıxış edən Lütfəli Abdullayev klassik operettalarda da, müasir bəstəkarların musiqili komediyalarında da koloritli personajlar yaratmağa nail olmuşdur. 25 yaşında səhnəyə qədəm qoyan aktyor 34 il ərzində bənzərsiz, özünəməxsus obrazlar yaratmaqla insanlara həmişə bol-bol sevinc, gülüş bəxş etmişdir. Təsadüfi deyildir ki, Şıxəli Qurbanov ona "Gülüş kralı" adını vermişdi. Onu həm də Şərqin Çarli Çaplini adlandırırdılar. Ancaq hamını güldürən, milyonlarla böyük sevinc, fərəh bəxş edən sənətkar özü 60-ı haqlaya bilmədi, 59 yaşında Bakıda dünyasını dəyişdi.

Onun çoxillik səhnə fəaliyyəti layiqincə qiymətləndirilmişdir. Lütfəli Abdullayev Azərbaycanın Xalq artisti fəxri adına layiq görülmüşdü. O, 1946-cı ildə SSRİ Dövlət mükafatı laureatı, eləcə də Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdu.

Qeyd edildi ki, böyük sənətkarın işıqlı xatirəsi onu ürəkdən sevən xalqının, millətinin xatirindən heç vaxt silinməyəcək, yaratdığı gözəl, təkrarsız obrazları ilə daim yaddaşlarda qalacaqdır.

İstər Kino Günü, istərsə də Lütfəli Abdullayevin həyat və fəaliyyətindən göstərilən parçalar, fraqmentlər tədbir iştirakçılarının ürəyindən olmuş, onlarda xoş, səmimi duyğular oyatmışdır.

KÜR ÇAYININ MƏNSƏBİNƏ 100 MİN BALIQ KÖRPƏSİ BURAXILDI

Yaxud 11 yaşlı Xıllı nərə balıqartırma zavodunun uğurları

"Zavod" deyəndə, adətən, göz önünə böyük qurğular, mürəkkəb avadanlıqlar gəlir, uğultulu, səsli-küylü bir məkan haqqında düşünülür. Neftçala rayonundakı Xıllı nərə balıqartırma zavodu isə bambaşqadır. Burada müəssisənin məhsullarının - balıqların özlərinə xas olan bir sükut hökm sürür. Amma balığı susuz təsəvvür etmək də qeyri-mümkündür. Odur ki, ətrafdakı sakitliyi pozan yalnız balıqların böyüdüldüyü hovuzlara axıdılan suyun şırıltısıdır.

Su demişkən, Kür çayının özü də buradan çox uzaqda deyil. Piyada getdikdə sahilədək cəmi bir neçə dəqiqəlik yol var. Müəssisədə keçirilən tədbir də elə həm zavodla, həm də Kürlə bağlı idi. Kür çayının mənsəbinə zavodda yetişdirilmiş balıq körpələrinin növbəti partiyası buraxılırdı. Hər dəfə müəssisənin həyatında hadisəyə çevrilən bu əməliyyatı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları, media nümayəndələri də müşahidə etdilər.

Zavodun direktoru Zaur Salmanov bildirdi ki, müəssisə fəaliyyətə başladığı vaxtdan indiyədək burada ümumilikdə 45 milyon ədədə yaxın müxtəlif növ nərə cinsli balıq körpələri yetişdirilib. Onlar standart ölçü və kütləyə, yəni 1-1,2 qrama çatdırıldıqdan sonra Kür çayının mənsəbinə buraxılıb. Hazırda zavod şəraitində süni yolla alınmış 5 mindən artıq müxtəlif yaş qrupuna mənsub nərə cinsli balıqlar saxlanılır. Lakin zavodun infrastrukturunda müvafiq dəyişiklik, yenidənqurma və genişlənmə işləri apararaq saxlanılan balıqların sayının 10 minə çatdırılması mümkün olduğundan bu sahədə hazırlıq işlərinə başlanıb.

Müasir tipli texniki avadanlıqlarla təchiz olunmuş Xıllı nərə balıqartırma zavodu əsasən nərə cinsli balıqların dörd növünün - bölgə, nərə, kələmo və uzunburun balıqlarının süni yolla artırılması ilə məşğul olur. Müəssisə Ümummilli Lider Heydər Əliyevin düşünülmüş, uzaqgörən siyasətinin nəticəsində və Xəzər dənizində bioloji resursların ehtiyatlarının idarə olunması məqsədilə işlənib hazırlanmış Milli Proqramın fəaliyyət istiqamətinə uyğun olaraq 2003-cü ildə Dünya Bankı tərəfindən maliyyələşdirilən Təxirəsalınmaz Ekoloji İnvestisiyalar Layihəsi çərçivəsində tikilib və istifadəyə verilib. Qeyd edək ki, məhz bu zavodun fəaliyyət göstərməsi Azərbaycana Xəzəryanı ölkələr sırasında nərə körpələrinin dənizə buraxılması sahəsində Rusiya və İrandan sonra üçüncü yeri qazandıra bilib.

Əsas istehsalat sexləri ilə tanış olan qonaqlara müəssisə haqqında daha geniş məlumat verildi.

Məsələn, bildirildi ki, təmir-törədici fondun yaradılması məqsədilə zavodda 2004-cü ildən elmi-praktik eksperimentlər həyata keçirilir. 2007-ci ildən başlayaraq yaz-yay balıqartırma mövsümündə yetişdirilmiş nərə cinsli balıq körpələrinin bir qismi zavod şəraitində böyüdülərək və nisbətən yüksək kütləyə, yəni 80-150 qrama malik olduqdan sonra Kür çayının mənsəbinə buraxılır. Son illərin təcrübəsi göstərir ki, ənənəvi normativ çəkidən (1-1,2 qram) nisbətən ağır olan körpələrin təbii ərazilərə buraxılması daha çox səmərə verir. Başqa sözlə, yəni nərə körpələrinin yaşama ehtimalı xeyli yüksək olur.

Bütün bunları nəzərə alaraq zavodun istehsalat infrastrukturunda müvafiq dəyişikliklərin edilməsi və bununla da istehsal olunan yüksək çəkiyə malik nərə cinsli körpə balıqların sayının bir neçə dəfə artırılması nəzərdə tutulub. Bu məqsədlə yaxın vaxtlarda müəssisədə eni 10, uzunluğu 80 metr olan 4 yeni torpaq hovuzunun rekonstruksiyası və onların bazasında müstəqil su təchizatının təmin edilməsi ilə yeni bir bölmənin yaradılmasına başlanacaq.

2010-cu ildən Azərbaycanda ilk dəfə olaraq məhz bu müəssisədə bir neçə nərə balığından onları öldürmədən "yumurtalıq yolunun kəsilməsi" üsulu ilə yetkin kürü alınır. Həm də kürüsü alınmış törədici nərə balıqları reabilitasiya məqsədilə 3-5 gün plastik hovuzlarda saxlandıqdan sonra ehtiyat nohura köçürülür. Bu metodla kürünün alınması təcrübəsinin gələcəkdə nəsli kəsilmək təhlükəsi olan nərə cinsli balıq növlərinə də (kələmo, bölgə) şamil edilməsi nəzərdə tutulur.

11 yaşlı gənc müəssisənin nailiyyətləri ildən-ilə çoxalır. 2013-cü il yaz-yay balıqartırma mövsümündə də zavodda bir sıra uğurlu nəticələr əldə edildi. Belə ki, Azərbaycanda süni balıqartırma tarixində ilk dəfə olaraq "kürüdən kürüyə" prinsipi qorunaraq zavodda saxlanılan və təmir törədici fondunun tərkibinə daxil edilən törədici balıqlardan cinsi məhsullar alınıb. Eyni uğur bu il də təkrarlanıb.

Xatırladaq ki, balıqartırma zavodlarının işi mövsümi xarakter daşıyır. Geniş ictimaiyyətin nərəkimilər haqqında maarifləndirilməsinə ehtiyac yarandığından digər vaxtlarda "Nərəkimiləri birgə qoruyaq" proqramı həyata keçirilir. Bu maarifləndirmə proqramında qədim yaşam tarixinə malik olan nərəkimilərin xüsusi qayğı ilə əhatə edilməsinin vacibliyi, yaşadıqları ekoloji mühit, təbii və süni çoxaldılma mexanizmləri və digər mövzular öz əksini tapıb.

Burada yeni infrastrukturun yaradılması və görülən digər tədbirlər təkcə müəssisənin özünü deyil, respublikada fəaliyyət göstərən balıqartırma zavodlarını da keyfiyyətli törədicilərlə təmin etməyə imkan verər, eyni zamanda ölkədə balıqçılıq və akvakultura sahəsinin inkişafına böyük dəstək olar. Xıllı nərə balıqartırma zavodu bunu özünün başlıca məqsədlərindən biri hesab edir.

Elə yuxarıda sözügedən tədbirin uğuru - Kür çayının mənsəbinə 100 min ədədə yaxın 1-1,2 qramlıq balıq körpələrinin buraxılması əməliyyatının müvəffəqiyyətlə keçməsi də müəssisənin öz məqsədlərinə doğru inamla getdiyini təsdiqləyir.

Flora SADIQLI

Qarabağ itkinlərimiz: YOLUNU GÖZLƏYİRİK, AZAD

O 1967-ci ilin martında, Novruz bayramı ərəfəsində gəlmişdi dünyaya. Gəlişiylə də ailəyə bir dünya sevinc gətirmişdi. Birinci sinfə gedənə qədər hər il qurban kəsilmişdi onun üçün. Əziz-xələf olmuşdu həmişə. Məktəbdə də yaxşı hörmət qazanmışdı. Müəllimləri də, şagird yoldaşları da çox istəmişdilər xatirini. Çalışqanlığına, səmimiyyətinə görə. Qiymətləri daim yüksək olduğundan hamı inanırdı Azadın gələcəyinə.

İnam özünü doğrultdu. Elə birinci il uğurla imtahan verərək ali məktəbə — Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Neft Akademiyası) qəbul olundu. Heç kim təəccüblənmədi Azadın bu müvəffəqiyyətinə. Ona görə ki, o bunu qazanmışdı. Sonrakı illər də uğurlu oldu. Qarabağ savaşı başlayanda Bakı Neftayırma Zavodunda işləyirdi Azad. Çalışqanlığı, mehribanlığı burada da ona böyük hörmət qazandırmışdı. Digər qeyrətli el oğulları kimi Azad da laqeyd qala bilməmişdi azğın düşmənin namərd hərəkətlərinə. Heç kimlə görüşmədən, sağollaşmadan könüllü getmişdi cəbhəyə. Görüşsəydi yəqin mane olmağa çalışacaqdılar ona. Bunu yaxşı bildiyindən belə etmişdi. Atası Ağaverdi kişi vuruşdu, erməni qaniçənlərindən qisasını aldı. 1994-cü ilin fevralında Şəhriyar qəsəbəsi uğrundakı döyüş son döyüş oldu Azad üçün. Atası Ağaverdi iki il hər yeri axtardı, soraq verilən bütün ünvanlara getdi, amma gördüm deyən olmadı. Əvəzində dərd tapdı, itkin oğul dərdi. Yatağa düşdü. Gözü qapı-pəncərədə qaldı. Azad gəlsə, sağalaram dedi. Amma Azad gəlmədi. Tələsilisi Azadın böyüdülərək çərçivəyə salınmış şəkli oldu. Hər gün bağrına basdı bu cansız şəkli. Əziz oğlunun qoxusunu sanki bu cansız şəkildən aldı. Azad deyə-deyə getdi haqqın dərgahına, Azad deyə-deyə yumdu gözlərini əbədi.

Ailənin bütün ağırlığı cəfakeş Arifə ananın üzərinə düşdü. Çətin, çox çətin günlər yaşadı bu ailə. Övlad dərdi azmış kimi, on uşağın yükünü də çəkməli oldu ana. Bu dərdə, ağırlığa dözə bilməyən Arifə ana da həyatla vidalaşdı, dünyadan köç etdi. Sonra bu ağır yükü ailənin digər cəfakeşi — Umleyla bibi çəkməli oldu. Özü də əsl bibi sevgisi ilə çəkdi.

Martın 11-i bu ailə üçün ən unudulmaz gündür. Özünün oturmadığı, sevinə bilmədiyi stolunun başında Azadın ad günü qeyd edilir. Artıq 45 yaşı tamam olsa da yaddaşlarda 26 yaşında qalıb Azad. Bəlkə nə vaxtsa əsirlər geri alınanda Azad da onlarla birlikdə qayıdacaq elə, obaya. Bacı-qardaşlarına həyan olacaq. Uzun illərin həsrətinə, ağrı-acısına son qoyulacaq. Acı göz yaşlarını sevinc yaşları əvəz edəcək.

Xalidə ƏLİYEVA

Bu yazını Astanlı kənd sakini, Azadın bacısı Xalidə Əliyeva göndərmişdi redaksiyamıza. Onu çap etməyə hazırlaşırdıq ki, ikinci məktub daxil oldu poçtumuza. Bu dəfəki məktubun müəllifi isə Xalidə Əliyevanın kiçik bacısı Zeynəb Zeynalova idi. Bu məktubu da həyəcansız oxumaq mümkün deyildi. Məktubda deyilirdi: *"Bir neçə ay bundan qabaq gözləmədiyimiz bir zəng gəldi bizə. — Beynəlxalq Qızıl Xaç Cəmiyyətinin Bakı nümayəndəliyindəndir, — dedilər, — icazə verirsinizsə, sizə gələk, tanış olaq. Etiraz etmədik. Gəldilər. Məlum oldu ki, gəlişlərindən məqsəd Qarabağ müharibəsi dövründə itkin düşmüş insanların doğmaları, şəhid ailələri ilə görüşməkdir. Şübhəsiz, 20 ildən sonrakı bu nəcib, xeyirxah təşəbbüs hər birimizin ürəyindən oldu, bizi çox sevindirdi. O*

vaxta qədər mən rayonumuzda neçə itkin, neçə şəhid ailəsinin olduğunu bilmirdim. Belə ailələrlə tanış olmaq, dərdləşmək bizim üçün də bir təsəlli, mənəvi dayaq oldu. Nəcib təşəbbüsə, bizi axtarıb tapdıqlarına, bizim kimi ailələri bir araya gətirib dərdimizə şərik olduqlarına görə cəmiyyətin Bakı nümayəndəliyinin əməkdaşları Elmira Mirzəyevaya, Reyhan Canıyevaya, habelə bizim ərazidə çalışan Mələk Kərimovaya, Rəsmiyyə Babayevaya təşəkkürümü və minnətdarlığımı bildirdim. Onların itkin ailələrinə verdikləri qan təzyiqini ölçən cihazlar, bir ailəyə hədiyyə etdikləri əlil arabası hər birimiz üçün unudulmaz oldu. Ayrılanda dedilər ki, bu ilkin tanışlıqdır. Yaxın günlərdə keçirəcəyimiz "Anım günü" daha unudulmaz olacaq. Həmin tədbirdə bir-birinizi, itkin və şəhid ailələrini daha yaxından tanıyacaqsınız. Sizi narahat edən çətinlikləri, problemləri də dilə gətirə bilərsiniz. Bunlar gələcək fəaliyyətimiz üçün istiqamət olar.

Belə də oldu. Anım günü təyin olunan vaxtda — iyunun 24-də keçirildi. Yuxarıda adlarını sadaladığım şəxslərin, xüsusilə nümayəndəliyin rəhbəri cənab Barvonun gəlişi bizi çox sevindirdi. Tədbirin təşkilində Şəhid Ailələri və Qarabağ Əlilləri İctimai Birliyi rayon şöbəsinin sədri Aydın Aslanovun zəhməti az deyildi. Cəmiyyətin Bakı nümayəndəliyinin əməkdaşı Elmira xanım tədbiri açaraq məqsəd və vəzifələrinə, görəcəkləri işlərə, həyata keçirəcəkləri tədbirlərə aydınlıq gətirdikdən sonra sözü rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqovaya verdi. Ölkəmizdə və rayonumuzda şəhid ailələrinə və Qarabağ müharibəsi veteranlarına daimi qayğı göstərildiyini, onların maddi-məişət şəraitlərinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlərin həyata keçirildiyini vurğulayan Gültəkin xanım "Anım günü"nü də belə ailələrə mənəvi dayaq kimi dəyərləndirdi və qonaqlara səmimi təşəkkürünü bildirdi.

Bu səmimi təşəkkürə, minnətdarlığa valideynlər, itkin və şəhidlərin əzizləri, doğmaları da qoşuldular. Bir çoxları həyatdan nakam getmiş əzizlərinə həsr etdikləri şeirləri də söylədilər. Hamısını da böyük maraqla, həyəcanla dinlədik, bir az kövrəldik də. Tədbir boyu çəkdirdiyimiz rəngarəng şəkillər "Anım günü"ndən ən əziz xatirə, yadigar kimi qaldı bizlərə.

İki gün sonra belə tədbir qonşu Salyan şəhərində də baş tutdu. Həmin tədbirə bir neçə neftçalalı ilə yanaşı, mən də dəvət olunmuşdum. Salyanın şəhid ailələri və Qarabağ əlilləri cəmiyyətinin rəhbərliyinin tədbirə qatılmaması qonaqları və yerli sakinləri çox narahat etdi. Əvəzində orada da rayonumuzu təmsil edən Aydın Aslanov danışdı. Nümayəndəliyin məsul şəxsləri neftçalalıların qonaqpərvərliyindən, səmimiyyətindən, həmişə onlarla bir yerdə olmalarından danışanda hər birimiz bundan qürur duyduq, çox sevindik. Cənab Barvo Neftçaladakı çəkilişləri, şəkilləri Şri-Lanka, İndoneziya və digər dövlətlərə apararaq orada yayacağını da bildirdi.

Keçirilən anım tədbirləri bizim üçün doğrudan da unudulmaz oldu. Hiss etdik ki, doğrudan da unudulmamışıq. Bizi yad edirlər, axtarıb tapırlar, səmimi sözlə, kiçik bir hədiyyə ilə də olsa niskilli ürəklərimizə mənəvi dayaq olurlar. Bizim üçün qiymətli olan da elə budur."

ÇƏTİNLİKLƏR OLMASA, XOŞ GÜNÜN QƏDRİ BİLİNMƏZ

Jalə SƏRDARZADƏ

Jalə Sərdarzadə Neftçala şəhərində doğulub boya-başa çatıb. Orta təhsilini burada alsa da, ali təhsilini Bakıda tamamlayıb. Təhsil aldığı illərdə mətbuatla da yaxından əlaqə saxlayıb. Müntəzəm çap olunub. Bizi əhatə edən aləm, cəmiyyət, Ulu Yaradanın hikmətləri özünəməxsus düşüncə tərzinə malik Jalənin məqalələrinin əsas xüsusiyyətləri olub. Aşağıdakı yazı da onun bu düşüncələrindən qaynaqlanıb.

Yer üzünün əşrəfi sayılan bütün canlılardan əqli ilə fərqləndirilən, Uca Yaradanın öz qüdrətindən pay alan insan,.. doğuluşu eyni, düşüncələri fərqli, elmli, helimli, lakin bir qism məsələlərdə acizləşən insan. Öz təxəyyülündə istək və arzularına çatmaq üçün səy göstərən, əməyinin nəticəsi olmayanda üzülən, məhv olan, amma buna baxmayaraq yenə də ümidi ölməyən insan...

İnsan anlayışı ilk baxışdan sadə görünsə də, amma daxilinə vardıqca bəni-adəm övladına verilən ən uca, ən əzəmətli, mənası dərin olan bir sözün bizlərə bəxş edildiyini anlayırıq.

İnsan başqa canlılar kimi iradə qüvvəsinə malikdir. Heyvanın iradəsinin yüyəni onun instinktinə bağlıdır. Amma insanın iradəsi onun ağlına tabe olmalıdır. Yaradılış dünyasının böyük sarayı səbəb və nəticə qanununa əsasən qurulmuşdur. Heç bir hadisə səbəbsiz deyil. Dənizlərin təlatümü, yarpaqların tökülməsi, yağışın, qarın yağması, üzvlərin, cizgilərin fərqlənməsi, millətlərin tərəqqi və tənəzzülü, cəmiyyətin xoşbəxtliyi, qısa desək, dünyada var olma payı olan hər şeyin səbəbi var. Bəzən bu səbəblər bizə məlum, bəzən isə gizlidir. Dünyanın ən güclü insanları əzab-əziyyət beşiyində bəslənənlərdir. Əzizənmə və naz-nemət beşiyində bəslənənlər soyuq bir nəsim əsməsi ilə solur, möhkəm küləklə yerlərindən qopurlar.

Materialistlər soruşurlar: nəyə görə mehriban Allah bəşəri bəlalar içində yaradıb? Bu bəlaların fəlsəfəsi nədir? Müsibət və bəlalar inanclı insanların inandığı Allahın adilliyi, rəhm və mehriban olması ilə necə uyğun gəlir? Onlar bir məsələni unudurlar ki, bütün bu bəlaların və bədbəxt hadisələrin yaradılış aləmi üçün faydalı olmasından əlavə, insan psixologiyasına da xeyri var. O xeyir ilk növbədə bundan ibarətdir ki, insan problemlə üzləşmədikcə, rahatlığın qədrini bilmir. Onun ikinci xeyri isə cəmiyyəti, dünyanı, bəşəriyyəti bürümüş zülmün qarşısını almaqdır. Belə bəlaların olması zəruridir. Hər şeyə həris olan bəşər övladı bir qədər də "oyan" zənginə ciddi möhtacdır ki, bir sıra pislik və zülmlərindən əl çəksin. Əgər məğrur insan hər şeyi istədiyi kimi görsə, heç kəs üçün yaşam hüququ tanımayacaq. Buna görə də bu bəlalar qəlblərin pasını yuyur və onlara şəfa və məhəbbət bəxş edir.

İxtiraçıların bir çoxu problemlərə, çətinliklərə və imkansızlıqlara rəğmən böyük müvəffəqiyyətlər əldə ediblər. Məsələn, Ferdison kiçik bıçaqla bir taxta saat düzəldib. Nyuton bir mikroskop və bir parça kağızla işığı parçalayıb və "rənglər" prinsipini kəşf edib və s.

Çətinliklər insanda mərdlik xüsusiyyətini aşılayır. Dünya həyatında bütün maddi və mənəvi fikirlər bir sıra problemlərin əsiridir. Onlara qalib gəlməliyik. Napoleon deyirmiş: "Bəlalar, sıxıntılar insanın ağlını gücləndirir." Niçe isə bu mövzuya belə yanaşır: "Səni çox sevdiyim üçün sənə əzabəziyyət və məğlubiyyət arzulayıram. Səni sevdiyim üçün sənə rəhm etmirəm. Bilirsən niyə? Çünki sənin gizli güclərinin oyanmasını arzulayıram. Sən bu yolla çətinliklərdə müsəlləh ruhla möhkəm duracaqsan."

Demək, bəşər övladı nə qədər çətinliklər girdabında büdrəsə də yenə də qalxıb özü öz ayaqlarının üzərində dayanmalıdır. M.Füzulinin təbirincə desək:

Canımı tapşırmışam çün
lələ-şəkkərparə mən,
Öldüm qibtədən canım
biçarə mən.
Cismimi eşqin yaratdı,
çəkdi ğəm bazarinə,
Öz xoşumla gəlməz idim
yoxsa bu bazarə mən.

Ömür karvanım fani dünyada irəlilədikcə insan talelərini müşahidə edib şahidi oluram ki, insan çətinlik dəryasının girdabında dalğalandıqca Uca Yaradana daha yaxın olur və ümidlə qıvrılan pənah yeri yalnız Allahın qapısı olur.

Həzrəti Əli (ə) buyurur: "Sənə təvəkkül edənlər Sənin hər yerdə olduğunu görürlər. Çünki Sən təvəkkül edənlərin harayına çatırsan, İlahi! Dost və aşiqlərinin batini sirlərini də görürsən və onların batinlərindən xəbərdarsan, onların bəsirətlərinin necə olmasını bilirsən, onların sirləri sənə əyandır və ürəkləri sənə doğru uçmaqdadır."

İDRAKIMIZIN SƏRHƏDİ — ƏBƏDİ YOXLUQ

(Atamın xatirəsinə dərin ehtiramla)

Bir vaxt Allahın hökmü ilə dünyaya gələn Atam Tanrının əmri ilə də öz ömür karvanını bu dünyadan çəkib getdi. "Olum" və "ölümün" uca Allahdan asılı olmasını bilsək də, bu məlum həqiqəti qəbul etmək dirilər üçün çox çətindir. Bir halda ki, ölüm haqdır, bəs nə səbəbə görə insan bu əmrin hər an gələ biləcəyinə hazır deyil?

— Qorxursan?
Ölümü düşünmə bir an,
Əgər düşünməsən, qorxmayacaqsan.
Ölüm qorxuludur, qorxulu, ancaq
Onun dəhşətini düşünən zaman.
— Onu düşünməmək mümkünmü? Çətin!
Hər gün çarpazlaşır içimdə səslər.
Nə qədər xoşbəxtdir, düşüncəsinin
Ölümsüz qatına yüksələn kəslər.
(B.Vahabzadə)

İnsan bütün həyatı boyu, yəni ölümə qədər, Allahın tələqini ilə "xoşbəxtlik" məfhumunun mahiyyətinin dərkinə çalışmaqla yaşayır. Əslində bu sadə həqiqətə çatmaq yolunu da Tanrı müəyyən edir. Bu isə bizə görə Həyat dediyimiz şirinli-acılı bir nemətdir. Şairin dediyi kimi, "düşüncəsinin ölümsüzlük qatına qalxa bilənlər xoşbəxt hesab oluna bilənlərdir". Şərq müdriklik aləmində belə bir kəlam var: "Heç vaxt ölməyəcəyin kimi çalış, sabah öləcəyin kimi yaşa."

Həyatın ağıllı insanlar qarşısında qoyduğu dilemma budur. Uşaq vaxtlarımda mənim həkim olmağımı arzu edən Atama demişdim:

— Ata, axı mən ölüdən qorxuram! Məndən həkim olmaz.

Atam mənə güldü:

— Ay qorxançı, ölünün nəyindən qorxursan, diri deyil ki?!

— Ölümdən qorxuram,
Yoxluqdur ölüm.
— Nəyindən qorxursan yoxun, ay gülüm?
Ölüm yoxluqsa da özü var ancaq.
Bir gün gec, bir gün tez məni çalacaq.
Yaşamaq çətindir, ölümün hər an
Yoxluq olduğunu biləndən sonra.
Bir şey bilirdinmi doğulmamışdan,
Nəyi biləcəksən öləndən sonra?
(B.Vahabzadə)

Biz ölümdən sonrakı "həyat"ın varlığını qəbul etmiş müsəlman olduğumuzdan özümüzü sakitləşdirə bilirik. Yaxşı ki, bu həqiqət, bu hökm var. Yoxsa, əməllərinin ona savab qazandıracağı inamı ilə çalışıb vuruşan insan övladı başqa canlılardan seçilməzdi.

Uşaqlığım, Gəncliyim, Ahıllığım eynimi?!
Yox, hər biri başqadır, bir-birinə yad kimi.
Gələn qovur gedəni.
İnkar edir mən məni...

Ömrün hər pilləsində başqalaşır təbimiz,
Dünyada məqsədimiz, dünyadan tələbimiz.
Vaxt məni pərvanə tək başına dolandırır,
Dünən qanmadığımı bu gün mənə qandırır.
(B.Vahabzadə)

Vaxt insan üçün hesablanmış Macaldır. Vaxtı Macal kimi qəbul etsək, çox böyük əməllər naminə yaşayıb həyatımızı zənginləşdirə bilərik. Çünki Macal Əcələ tabedir. "Gəldi əcəl, vermədi macal" deyən ulların minlərlə sınağı bu hökmü çıxarmağa əsas olub.

Anama — "deyəsən, ürəyim dayanır, mənə su ver" xahişi ilə bu xahişinin icrası arasında bitdi zəhmətkeş, təbib, loğman, həkim, sənətkar və gözəl insan olan Atamın 76 illik ömrü. İş fəaliyyəti dövründə neçə-neçə xəstəsini həmin andan Allahın izni ilə qaytara bilən Atama həmin anda Tanrıdan onun dərgahına dönmək əmri gəldi. Həmişə dili şükürlü, əli "Quran"lı, alnı möhürlü, əli şəfqətli, rəhmdil və səxavətli Atama layiq olan sözləri tapmaqda aciz qalmışam. Allahdan həmişə istədiyi "Az ağrı, asan ölüm" "mükafatı"nı Tanrıdan qazanan Allahpərəst insan Eldən gedən kişilərdən biri idi. Övladlarına yaxşı ad, gözəl tərbiyə və təhsil verib rahat olan Atam xoşbəxt insanlardan biri idi. Mən əbədiyyətə gedən insana da qibtə edilməsinin şahidi oldum. Halal xoşu olsun!

Dünya hey fırlanır belədən-belə,
Zamanı önləyib ötən olmasın.
Dünya fırlanır ki, keçməsin ələ,
Onun ətəyini tutan olmasın.
(B.Vahabzadə)

Qoy bizi yaradan öz birliyi xatirinə "Dünyanın ətəyindən yapışıb qalmaq" arzusunu qəlbimizə salmasın! Çünki insanları haqq yolundan azdıran əsas məsələ də bundadır.

Dünya fırlanır ki, dönsün bu gərdiş,
İdrakın önündə an əyilməsin.
Dünya fırlanır ki, insan ölməmiş
Dünyadan dünyaya keçə bilməsin.
(B.Vahabzadə)

Əbədi dünyanı kimin qazanıb-qazanmaması bizlər üçün məlum deyil. Lakin məlum olan bir həqiqət var ki, yaxşı əməl sahibləri hər iki dünyanı qazana bilirlər.

Qüdsiyyə Gülhüseyn qızı QƏNBƏROVA,
Azərbaycan Milli Elmlər Akademiyası
Nəsimi adına Dilçilik İnstitutunun
aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə
doktoru, dosent

Sizin sağlamlığınız: DEPRESSİYA RUHİ XƏSTƏLİYİN BAŞLANĞICIDIR

Təxminən bir il bundan qabaq Xaçmaz rayonunda dəhşətli qətl hadisəsi baş vedi. 17 yaşlı Tamerlan Nizamov 14 yaşlı qardaşı Nizam Nizamovu öldürdü. O, kiçik qardaşına 5 bıçaq zərbəsi vurub. İnsident zamanı uşaqların atası 68 yaşlı Eynulla Nizamov da əlindən yaralanıb. Ata övladlarını ayıran zaman xəsarət alıb. İlkin araşdırmalar zamanı məlum olub ki, qardaşların arasında mübahisə kompüter oyunu üstündə yaranıb. Hər iki qardaşın ikinci qrup əlil və ruhi xəstə kimi qeydiyyatda olduğu bildirilir.

Demək olar ki, hər gün belə xəbərlərlə qarşılaşırıq. Əksər kriminal xəbərlərin sonunda isə öldürülən şəxsin ruhi xəstə olduğu yazılır. İnsan elə düşüncəyə qapılır ki, bütün ruhi xəstələr qatildir, yaxud hər an qatil ola bilər. Halbuki ruhi xəstə olan insanlar heç də digər insanlardan təhlükəli deyillər. Onlar o zaman təhlükəli olurlar ki, müalicə almır, xəstəxanalarda yatmır və sağlam insanlarla eyni evdə yaşayırlar.

Ruhi xəstəliklərin səbəbləri haqqında da çox şey məlum deyil. Lakin məlumdur ki, bütün ruhi xəstəliklər baş beynin funksiyasının pozulması və orda yaranan problemlərlə bağlıdır.

Psixiatr Fidan Hümbətlinin sözlərinə görə, risk qrupuna daxil olan insanlar var ki, məhz bələləri daha çox ruhi xəstəliyə meyllidirlər. Ailəsində ruhi xəstə olan, problemlərdən daima stresdə qalan, doğuş zamanı sarsıntı keçirən insanların ruhi xəstə olma ehtimalı daha böyükdür: "Ruhi xəstəliklərin simptomları birdən-birə meydana çıxmaz. Xəstəlik özünü yavaş-yavaş göstərər. Elə buna görə də xəstəliyin dəqiq diaqnozunu qoymaq vaxt və səbir istəyir".

F.Hümbətli deyir ki, bu xəstəliyin irsən keçməsi də mümkündür. Lakin ailədaxili olan şiddət, uşaqların döyülməsi, psixoloji zədələnməsi, ailə başçısının yoldaşına əzab verməsi, döyməsi də insanların ruhi xəstə olmasına gətirib çıxara bilər. İnsanlar o zaman səhv edirlər ki, belə xəstəliyi olanları ruhi dispanserdə yatmağa icazə vermirlər və evdə saxlayırlar. "Ata-anasının və ya övladının dispanserdə yatmasına qıymayanlar bir müddət sonra özləri belə xəstələrin qurbanları olurlar".



Psixoloq Emil Behrudi bildirir ki, ruhi xəstəliklərin yaranma səbəbləri çox müxtəlifdir. Əsasən irsi, genetik yolla daha çox keçir. Elm hələ bu xəstəliyin yaranma səbəblərini tam aşkarlamayıb: "Ruhi xəstəliklərin yaranması üçün hökmən deyil ki, hər hansı bir travma alasan, yaxud irsi kimdənsə keçə. Uzun sürən depressiyalar da insanı daxilən zədələyir. Ailədaxili münasibətlərin normal olmaması, şiddətə məruz qalmaq, özünə güvənin olmaması, insanlar tərəfindən təklənmək və qəbul edilməmək də insanın tək qalıb sonunda ruhi xəstəliyə tutulmasına səbəb ola bilər. Xəstəliyə tutulan insanlar özlərini xəstə hesab etmirlər. Onlar belə düşünürlər ki, onlarda hər şey qaydasındadır və heç bir problem yoxdur. Halbuki onlarda real həyat hissi itir. Onlar özlərini bir başqa dünyada yaşayırmış kimi hiss edirlər. Belə hissiyyatsızlıqla onlar həm özlərinə, həm ailə fərdlərinə xətər yetirə bilərlər. Çünki onlar düşünmürlər ki, kiməsə xətər yetirməyin nəticəsi nə ola bilər".

Bu kimi xəstəliklərə tutulan insanlar ya yersiz hərəkətlər edirlər, yaxud heç bir hərəkət etmədən uzun müddət bir nöqtəyə baxırlar. Bir sözlə, insan tamamilə özlüyündən çıxır və başqa bir insanmış kimi davranır. Bu davranışlar müşahidə olunarsa deməli, insan hansısa ruhi xəstəlikdən əziyyət çəkir.

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin 2008-ci il üçün açıqladığı məlumata görə müalicə-profilaktika müəssisələrində qeydiyyatda duran xəstələrin sayı 123 min nəfərə yaxın olub. 2000-ci ildə isə bu rəqəm 97 min nəfərdən bir qədər çox olub. Birinci dəfə müraciət edən ruhi xəstələrin sayında ən çox artım 2000-2003-cü illərdə olub. Həmin dövr ərzində hər il qeydə alınan xəstələrin sayı 7000-ə yaxın olub. Sonrakı iki ildə bir qədər azalma olsa da, bu rəqəm 6000-dən aşağı düşməyib. 2008-ci ildə qeydiyyata alınan ruhi xəstələrin sayı isə 5000-dən artıq olub. 2011-ci ildə də 5000-dən çox ruhi xəstə ilk dəfə qoyulan diaqnozla qeydə alınıb. Lakin nəzərə alınmalıdır ki, bu rəqəm sadəcə qeydiyyatda olan xəstələrin sayıdır. Bundan əlavə ev şəraitində saxlanılan xəstələr də var ki, belə xəstələrin nə zaman kimə hansı xəsarəti yetirəcəyi bəlli deyil.

Günay RAMİZQIZI

GÜNDOĞAR

№ 25-26-27 (6535) 5 avqust 2014-cü il

SON SƏHİFƏ

Ömrün dolaylarında

70 YAŞLI ALİM

Haqqında söhbət açmaq istədiyimiz Əvəz Cahangir oğlu Fərəcov 1944-cü il iyulun 1-də Cəlilabad şəhərində anadan olmuşdur. Şəhər 2 saylı orta məktəbini bitirdikdən sonra 1963-cü ildə Azərbaycan Neft Akademiyasının "Kimya-texnologiya" fakültəsinə qəbul olunmuş və 1968-ci ildə oranı "qeyri-üzvi maddələrin və kimyəvi gübrələrin texnologiyası" ixtisası üzrə bitirərək mühəndis-texnoloq ixtisasına yiyələnmişdir. Tədris illərində Əvəzin Bakının Zığ qəsəbəsində Azneftin oksigen zavodunda istehsalatda çalışması gənc yaşlarından ona yaxşı təcrübə qazandırmışdır. 1968-ci il Əvəz Fərəcovun həyatında unudulmaz il kimi qalıb. Həmin il institutu bitirən Əvəz təyinatla Neftçaladakı 1 May adına Yod-Brom Zavoduna göndərilir. O vaxt o, diplom müdafiəsini 6 ay Bakı yod zavodunda təcrübə keçməklə hazırlamış və müdafiə etmişdi. Həmin illərdə Neftçala Yod-Brom zavodu Kiyevdə yerləşən Ümumittifaq Yod-Brom Birliyinə tabe idi və onun yeganə "Yod-brom" Elmi Tədqiqat İnstitutu Krım Vilayətinin Saki şəhərində yerləşirdi. Bu idarəçilik 1984-cü ilin sonuna, Yeni Neftçala Yod-Brom Zavodu işə buraxılana kimi davam edir, 1984-cü ildən sonra isə müəssisə SSRİ Kimya Sənayesinə tabe edilir. O vaxt yeni texnologiya ilə işləyərək bu zavodu işə buraxmaq, işlətmək o qədər də asan deyildi. Bunun üçün savadlı, bacarıqlı kadrlar tələb olunurdu. Bunu nəzərə alaraq Əvəz Fərəcovu SSRİ Kimya Sənayesi Nazirinin əmri ilə müəssisəyə yeni baş mühəndis təyin edirlər. Daha sonra o bu məsul vəzifəni Neftçala Yod-Brom Zavodu Neftçala Yod-Brom İstehsalat Birliyinə çevriləndə də daşımalı olur.

Əvəz Fərəcov istehsalatda çalışmaqla yanaşı təhsilini artırmağı, nəzəri biliklərini genişləndirməyi də unutmur. Onu 1978-ci ilin sonunda qiyabi yolla Azərbaycan Neft və Kimya İnstitutunun aspiranturasına gətirən də qəlbindəki bu arzuları oldu. Dörd illik aspirantura dövrü də uğurla başa çatdı. Bu dövrdə kimya elmləri doktoru, professor Əliməmməd Şabanovun rəhbərliyi altında çalışan, elmi tədqiqatlar aparan Əvəz müəllim sevib-seçdiyi kimyanın sirlərini daha dərindən öyrənməyə nail oldu, 1989-cu ildə elmi işini tamamladı. Elmi işin ilk müdafiəsi SSRİ-də yeganə olan Krim Vilayətinin Saki şəhərində "Yod-Brom" Elmi Tədqiqat Elmi-İstehsalat Birliyinin elmi şurasında 1989-cu ilin mart ayında keçirildi. Əsas müdafiə isə 1989-cu ilin iyun ayının 6-da Daşkənd şəhərində ixtisaslaşdırılmış şurasında baş tutdu. "Neftçala yatağı buruq sularında yodid yodunun



oksidləşməsi və iondəyişmə ilə sorbsiyası" mövzusunda dissertasiya işini uğurla müdafiə edən Əvəz Fərəcov Ali Attestasiya Komissiyasının qərarına əsasən texnika elmləri namizədi alimlik dərəcəsinə layiq görüldü. Yeri gəlmişkən deyək ki, yodun qazma sularından reversiv və dəyişən cərəyanla ayrılması birinci dəfə məhz Əvəz müəllim tərəfindən tətbiq edilmiş və 1979-cu ildə ona 681986 saylı müəlliflik şəhadətnaməsi verilmişdir. Daha sonra isə o, yodun alınma üsuluna görə 1984-cü ildə 110-917 saylı növbəti müəlliflik şəhadətnaməsinə layiq görülmüşdür.

Əvəz Fərəcovun sonrakı ömür yolu da kimya sənayesi ilə bağlı olmuşdur. O, 1980-ci ildən 2003-cü ilə qədər Yeni Neftçala Yod-Brom Zavodunda baş mühəndis vəzifəsində çalışmış, 2003-cü ildən isə "Neftçala Yod-Brom" Açıq Səhmdar Cəmiyyətinə sədr təyin edilmişdir. Zavod 2004-cü ildən özəlləşərək "Azər-Yod" MMC-yə çevrildikdən sonra isə Əvəz müəllim əmək fəaliyyətini burada davam etdirmişdir. Bu gün də həmin müəssisədə mühəndis-ekoloq vəzifəsini yerinə yetirir. İxtisaslaşdırılmış elmi şuranın dissertasiyanın nəticələrini Yeni Neftçala Yod-Brom Zavodunda, Krım "Yod-Brom" Elmi İstehsalat Birliyində (Ukrayna), Çeleken Yod Zavodunda (Türkmənistan), Nebitdağ Yod Zavodunda (Türkmənistan) və Rusiya Federasiyasının Krasnodar vilayətindəki yod zavodunda tətbiq etməyi tövsiyə etməsi onun dəyərli elmi araşdırmalarının bəhrəsidir. Daim oxuyub öyrənən, tədqiqatlar aparan, təcrübəsini zənginləşdirən Əvəz Fərəcov özünü həmişə savadlı mühəndis, yüksək təşkilatçılıq qabiliyyəti olan mütəxəssis kimi göstərə bilmişdir. Moskva, Xarkov şəhərlərində ixtisasartırma kursları, 1991-1992-ci illərdə ölkədə yeni iqtisadi siyasətə keçidlə əlaqədar Almaniyanın BAD-Qasburq şəhərindəki akademiyada təhsili, Rostov şəhəri universitetində bazar iqtisadiyyatına keçidlə əlaqədar dinləyicisi olduğu ixtisasartırma kursları bu uğurların əldə olunmasında ona yardımçı olmuşdur. Əvəz müəllim Yeni Neftçala Yod-Brom Zavodu istifadəyə verilən gündən onun istehsal gücünün mənimsənilməsi, yeni məhsullar istehsal edən əlavə qurğuların quraşdırılması üçün bilik və bacarığını, qüvvəsini əsirgəməmişdir. Uzun illər o, respublika "Bilik" cəmiyyəti zavod təşkilatının sədri olmuş, müəssisənin səmərələşdiricilərinə rəhbərlik etmişdir.

O təkcə özü oxuyub öyrənməmişdir, həm də öyrəndiklərini, bildiklərini gənclərə öyrətmişdir. Onun Bakı Axşam Neft Texnikumunun Neftçala filialındakı fəaliyyəti bu cəhətdən diqqətəlayiqdir. Əvəz müəllim bu filialda düz 21 il çalışaraq neft və qazın kimyəvi texnologiyası ixtisası üzrə kadrların hazırlanmasında yaxından iştirak etmişdir.

Əvəz müəllim ömür-gün yoldaşı Təibə xanımla birlikdə üç övlad böyüdərək tərbiyə etmişlər. Nailə, Elmir, Ülviyyə, Təibə, Tural isə sevimli nəvələrdir. Nəslin davamçıları olan bu gülüzlü balalar baba üçün xüsusilə qiymətlidir.

Bu günlərdə Əvəz müəllimin 70 yaşı tamam oldu. Dostları, yoldaşları, doğmaları onu təbrik edərək ən xoş arzularını bildirdilər. Bu arzulara biz də qoşuluruq, Əvəz müəllim. Sizə möhkəm can sağlığı arzulayırıq. Arzu edirik ki, ömrünüzün qalan günlərini də mənalı yaşayasınız.

Fərhad AĞAYEV

Ən yüksək bal toplayan məzunlarımız

Yay ayları məktəblilər üçün ən həyəcanlı, narahat dövrdür. Şagirdlər bir-birindən çətin sınaqlarla məhz bu dövrdə üzləşirlər. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının ölkənin ali məktəblərinə keçirdiyi qəbul imtahanları xüsusilə çətin, məsuliyyətlidir. Şagirdlər nəyə qadir olduqlarını, qazandıqları bilik və bacarıqlarını məhz bu çətin sınaqlarda nümayiş etdirirlər.

Bu il də belə oldu. Rayonumuzda orta təhsillərini başa vuran 682 nəfər onbirinci sinif şagirdindən 368 nəfəri qəbul imtahanlarında iştirak etmək üçün TQDK-ya ərizə vermişdi. Onların əksəriyyəti müvəffəqiyyətlə imtahan verərək keçid ballarını toplaya bilmişlər. Artıq ixtisas seçimi mərhələsi də başa çatıb. Bir neçə gündən sonra yəqin onların hansı ali məktəbdə təhsillərini davam etdirəcəkləri də məlum olacaq. Aşağıdakı məzunlarımız qəbul imtahanlarında ən çox bal toplamışlar. Onları ürəkdən təbrik edir, təhsilin çətin yollarında daha böyük uğurlar arzulayırıq.

Orayev Maqsat Annamuradoviç — 669 bal, I qrup — Qırmızıkənd kənd tam orta məktəbi

Abdulrəhmanlı Sevinc Əli qızı — 663 bal, III qrup — 4 saylı şəhər tam orta məktəbi

Ağazadə Səbinə Xalid qızı — 652 bal, II qrup — 4 saylı şəhər tam orta məktəbi

Əkbərli Nurlan Ceyhun oğlu — 626 bal, II qrup — 1 saylı şəhər tam orta məktəbi

Quliyev Hafis İlham oğlu — 622 bal, II qrup — "Muğan" liseyi

Baxışov Fərhad Ceyhun oğlu — 604 bal, III qrup — 2 saylı şəhər tam orta məktəbi

Abdullayev Mirnamiq Mirhadi oğlu — 600 bal, I qrup — Qədimkənd kənd tam orta məktəbi

Nağıyeva Nərgiz Fikrət qızı — 600 bal, III qrup — Ərəbqardaşbəyli kənd tam orta məktəbi

Atamalı Talıboğlu - 75

ŞAİRİN SƏNƏT HESABATI

Desəm ki, keçən əsrin 40-cı ilində Azərbaycanın dilbər guşəsi Lerik rayonunun Cəngəmiran kəndində dünyaya göz açan Atamalı Talıboğlu (Babayev Atamalı Talıb oğlu) anadan şair doğulub, səhv etmərəm. Şairin özü haqqında yazdığı məktubda oxuyuruq: "İlk şeirim Lerikdə çıxan "Kolxoz yolu" qəzetində işıq üzü görüb. "Kəndimizin işıqları"nın ayağı yüngül oldu. Sonrakı illərdə "Leninçi", "Sovet Astarası", "Bolluq uğrunda", "Yeni həyat", "Şuşa" rayon qəzetlərində çap olunmağa başladım. 1965-ci ildə Əməkdar İncəsənət Xadimi mərhum yazıçımız Məmmədhüseyn Əliyev "Bolluq uğrunda" qəzetində mənə "Uğurlu yol" yazmışdır. Şair Osman Sarıvəlli rayonumuza gələrkən çıxışlarının birində məni təbiətə ürəkdən bağlı olan bir şair adlandırmışdı.

1970-ci ildən respublika mətbuatında çıxış etməyə başlamışam. Respublika radiosunun "Ədəbi düşüncələr" verlişində ondan çox şeirim oxunub. Həmin dövrdə Salyanda fəaliyyət göstərən "Kürün töhfəsi" ədəbi birliyinin üzvü olmuşam. Şeirlərim rayonda çıxan "Qələbə" qəzetində dərc olunmuşdur. Sonrakı illərdə şeirlərim ardıcıl olaraq respublika mətbuatında – "Təşviqatçı", "Azərbaycan qadını" jurnallarında, "Bakınski raboçi", "Molodyoj Azərbaydjana", "Vışka", "Bakı", "Sovet kəndi", "Azərbaycan müəllimi" qəzetlərində çap olunmağa başladı. Cənub bölgəsindən şifahi xalq ədəbiyyatı nümunələri toplayaraq çap etdirmişəm. S.Vurğun, R.Rza, M.F. Axundov, Nazim Hikmət və S.Rəhimov haqqında yazdığım publisistik məqalələr oxucular tərəfindən maraqla qarşılanmışdır.

Tərcümə sahəsində də müəyyən işlər görmüşəm. Rəsul Həmzətovun, Konstantin Benşankinin, Lyudmila Tatyaniçevanın, Usay Tobolskinin, İvan Antonovun, Mixail Lvovun bir çox şeirlərini tərcümə edib respublikanın müxtəlif mətbuatında çap etdirmişəm".

Atamalı Talıboğlu Neftçala rayonunun Xəzər kəndində yaşayır. Uzun müddət bu kənddə müəllim işləyib. Kimsə fikirləşə bilər ki, Lerik kimi dilbər guşədə doğulasan, Muğanın ucqar kəndində məskunlaşasan. Bir nəfər yolçudan soruşurlar: Yolçu qardaş, haralısan? Cavab verir ki, hələ evlənməmişəm. Atamalı müəllim də ailə həyatı quran



gündən Xəzər kəndində yaşayır, burada işləyir, şeirlərini burada yazır.

Mən Atamalı Talıboğlu ilə 1971-ci ildən tanışam. İstər "Qələbə" qəzetinin nəzdindəki "Kürün töhfəsi", istərsə də "Gündoğar" qəzetinin nəzdindəki "Xəzər nəğmələri" ədəbi birliklərinə rəhbərlik etdiyim üçün onu yaxından tanıyıram. Atamalı Talıboğlu gözlərimin önündə yazıb yaradıb, püxtələşib.

Akademik Hacı İmamverdi Əbilov "Kürün töhfəsi" yetkinləşir" adlı məqaləsində yazır: "Kürün töhfəsi" ədəbi birliyinin bir yaşı tamam olur. "Qələbə" qəzetinin illik nömrələrini vərəqləyirik... Soltan Abbasın, Balaş Nurunun, Fəxrəddin Becanoğlunun, Nizami Orucun, Ramiz Duyğunun, Arif Xəzərin, Atamalı Talıboğlunun, Alik Orucovun şeirlərindəki məziyyət ona görə təqdir olumalıdır ki, müəlliflər faydasız didaktikadan, süni effektdən, lüzumsuz ritorikadan uzaqdırlar. Onların yazılarını oxuyanda hiss edirsən ki, səninlə şair danışır. Balzakın məşhur sözləri yada düşür: Yazıçılıq istedadı insan qəlbinin gizli hərəkətini təsvir edə bilmək bacarığından ibarətdir.

Atamalı Talıboğlunun bir neçə kitabının redaktoru olmuş tanınmış ziyalımız, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Fəxrəddin Fərzəliyev şairin "Sizi axtarıram" şeirlər kitabına yazdığı ön sözdə oxuyuruq: "Atamalı Talıboğlu çoxşaxəli yaradıcılığa malikdir. O, Cənub bölgəsində topladığı folklor nümunələri ilə Azərbaycanın şifahi xalq ədəbiyyatını xeyli zənginləşdirmişdir. Qələm dostumuz indiyə kimi respublikamızın müxtəlif nəşriyyatlarında çapdan çıxan "Yaz ətri, payız həsrəti", "Dünya, sən kiminsən", " Sizdən nigaranam mən", "Arzular işığında", "Kəndim məni çağırır", "Yada düşər xatirələr", "Tükənməyib sözüm hələ" şeir kitablarının müəllifidir".

"Sizi axtarıram" şeirlər kitabı şairin səkkizinci kitabıdır. İlk kitabın nəşri 2003-cü ildə olmaqla ardıcıl hər il bir kitab nəşr etdirib. Səkkiz kitabda nəşr olunan şeirlərin heç birinin yazılma tarixi yoxdur. Nə yaxşı kitabların nəşr ili göstərilib.

Sual ola bilər Atamalı Talıboğlu nədən yazır?. Etiraf etməliyəm ki, təbiət, torpaq, zəhmət, ana, ata, övlad, məktəb həyatı, Vətən sevgisi, məhəbbət və sair mövzular müəllifin vaxtaşırı qələmə aldığı şeirlərdir.

A.Talıboğlunun poeziyasına xas olan keyfiyətlərdən biri konkretlik, lakoniklik, fikrin yığcam ifadə edilməsidir. Uzunçuluq, fikri dolayı yollarla ifadə etmək onun qələminə yaddır. Ən ümdəsi də nədən yazdığını, kim üçün yazdığını bilir, həm də şairin özünə məxsus təsvir vasitələri var.

Əzizləndik eldə, sevildik eldə,
Çiçəkli, güllü yaz, bir bahar kimi.
Böyüdük çəməndə, böyüdük çöldə
Yaşıl otlar kimi, ağaclar kimi.
"Yada düşər xatirələr"

Eh, nələr görürəm,
bu gün mən nələr...
Güllərin çoxusu
kökdən vurulmuş.
Lalələr, nərgizlər, tər bənövşələr
Zəmidə bitəndə alaq olurmuş.
"Sizi axtarıram"

Bir təhlükə, qorxu andı,
Dağdan uçub qanadlandı,
Endi daşdan düzə kəklik.
Vaxt tapmadı barışmağa,
Dil tapmadı danışmağa.
Ümid qaldı söz qoşmağa,
Nəğmə qoşdu bizə kəklik.
"Yada düşər xatirələr"

Şairin yaradıcılığında məhəbbət lirikası xüsusi yer tutur:

Gör nələr eylədin bu gedişlə sən,
Sındırdın qəlbimi, diddin qəlbimi.
Bilirəm, gec-tezi geri dönərsən
Ünvanı səhv düşən
məktublar kimi.
"Tükənməyib sözüm hələ"

Açığını deyim ki, Atamalı Talıboğlu elə bu inam ilə, sevgi, məhəbbətlə də Xəzər kəndində məskunlaşdı. Bəziləri kimi ilk qələm təcrübələrini çap etdirən kimi şəhərə qaçmağa can atmadı, dərsini dedi, şerini yazdı. Çünki o, çox erkən başa düşdü ki, sağlam toxum qara daş üstündə də göyərə bilər. Şair, pedaqoq Atamalı Talıboğlu saf, təmiz, büllur məfkurə sahibidir. Ana torpağın hər qarışı onun üçün Vətəndir.

Böyük şairimiz Məmməd Araz demişkən:

Vətən mənə oğul desə
nə dərdim,
Mamır olub qayasında bitərdim.

Yetmiş beş yaşın mübarək olsun, əziz dost! Yüz yaşa, gələn görüşlərədək.

Hörmətlə,
Soltan ABBAS

"Əmək yarmarkası"nda

Neftçala Rayon Məşğulluq Mərkəzi 31 iyul 2014-cü il tarixdə Azərbaycanın Milli Qəhrəmanı Xanoğlan Məmmədov adına şəhər mədəniyyət və incəsənət sarayında "Əmək yarmarkası" keçirmişdir. Rayonun 39 idarə və müəssisəsinin iştirak etdiyi "Əmək yarmarkası"nda işsiz və işaxtaran vətəndaşlara 185 boş (vakant) iş yeri təklif olunmuşdur. Bunun 98-ni qulluqçu, 79-nu fəhlə, 8-ni isə xidmət sahəsi peşələri təşkil etmişdir. Bununla yanaşı işsiz və işaxtaran vətəndaşlara həmçinin peşə hazırlığı kurslarında ixtisaslaşma və peşə hazırlığı, kənd təsərrüfatı işlərinin başlanması ilə əlaqədar haqqı ödənilən müvəqqəti xarakterli mövsümi işlər də təklif olunmuşdur.

"Əmək yarmarkası"nda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin statistika sektorunun müdiri Elçin Səlimov və Neftçala Rayon İcra Hakimiyyətinin məsul işçisi M.Talıbov iştirak etmişdir.

"Əmək yarmarkası"nda 296-dan artıq işsiz və işaxtaran vətəndaş iştirak etmişdir. Onlardan 71 nəfərinə işə göndəriş verilmiş, 8 nəfəri haqqı ödənilən müvəqqəti xarakterli mövsümi işlərə cəlb edilmişdir.

Vergilər Nazirliyinin Çağrı Mərkəzi 195

Göstərilən xidmətlər:

- Vergi qanunvericiliyinə dair sualların cavablandırılması
- Elektron xidmətlərin tətbiqi ilə bağlı sualların cavablandırılması və yaranmış çətinliklərin aradan qaldırılmasına köməklik
- Vergidən yayınma halları barədə məlumatlarınqəbulu
- Vergi orqanının və onun vəzifəli şəxslərinin hərəkət və ya hərəkətsizliyi barədə şikayətlərin qəbulu
- Asan İmza barədə müraciətlərin cavablandırılması (fasiləsiz)
- VÖEN-ə əsasən vergi borcu barədə məlumatın verilməsi (fasiləsiz)
- Zəng sifarişi (qeyri-iş saatlarında)

Vergilər Nazirliyinin Çağrı Mərkəzinə zəng etmək qaydası:

Çağrı Mərkəzinin xidmətlərindən stasionar telefonlardan, habelə, "Azercell" və "Narmobile" nömrələrindən birbaşa "195" nömrəsini, "Bakcell" nömrələrindən isə "012 195"nömrəsini yığaraq istifadə edə bilərsiniz.

195 nömrəsi yığıldıqdan sonra 1 düyməsini seçməklə Vergilər Nazirliyinin Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

Qeyd:195 nömrəsinə zəng edərkən telefon ton rejimində işləməlidir. Əgər 195-ə zəng edib 1 düyməsini seçdikdən sonra əlaqə kəsilirsə bu sizin telefonunuzun ton rejimində işləməməsi ilə əlaqəlidir. Bu zaman 195-ə zəng etdikdən sonra 1 düyməsini seçməzdən öncə * (ulduz) düyməsini sıxmaqla telefonu ton rejiminə keçirmək olar.

LƏMANIN ŞEİRLƏRİ

Ləman Yusif qızı Səlimova rayonun Mirqurbanlı kəndində yaşayır. Burada anadan olmuş, orta təhsilini də kənddəki məktəbdə başa vurmuşdur. Poeziyaya həvəs göstərən Ləman təbi gələndə şeirlər də yazır. Aşağıdakı şeirlər də onun poetik duyğularının məhsuludur.



VƏTƏN

Vətən kəlməsində başqa məna var,
Bu sözün qüdrəti bitməz, tükənməz.
Vətəni uğrunda çarpışan insan
Torpağa düşsə də göylərdən enməz.

Mənim öz Vətənim mənə doğmadır,
Doğma əlim kimi, ürəyim kimi.
Harda ki dil açır Vətən sevgisi,
Başqa sevgilərin sınır tilsimi.

Vətən qiymətini bilmək istəsən
Mənim bu şeirimi yaxşı oxu sən.
Nə fərqi şirindir, şordur torpağı,
Vətənindəsənsə, cənnətindəsən.

Mən burda doğuldum, sevdim, sevildim,
Vətən torpağına gövhər dedim mən.
Yollarıma çıxan şəri, zülməti
Vətən sevgisilə üstələdim mən.

Mən Vətən uğrunda candan keçərəm,
Hər daşı, qayası mənə əzizdir.
Vətəni sevməyi bizə öyrədən
Uludan da Ulu Öndərimizdir!

DƏLİ SEVGİ

Susuram hər dəfə səni görəndə,
Elə bil quruyur, tutulur dilim.
Söz tapa bilmirəm sənə deməyə,
Bilmirəm sevgimi necə bildirim.

Eləcə dayanıb baxıb gözünə
Elə bil rahatlıq tapıram sanki.
Sən dünya olursan, dünya sən olur,
Məni dəli edir bu dəli sevgi.

Yanında səninlə oluram xoşbəxt,
Sənlə dəqiqəni, vaxtı saymıram,
Xəbərin olmur ki, görüş bitəndə
Axır gözlərimdən yaş aram-aram.

Sən başqa şəhərə çıxıb gedəndə
Ürəyim dayanar, ölürəm sanki.
Gəlirsən, təzədən dirilirəm mən,
Məni dərdli edir bu dəli sevgi.

Sarıqamış kənd sakini Nicat Elşən oğlu Sarıyevin adına verilmiş AO N 1236173 nömrəli, 7 yanvar 2011-ci il tarixli hərbi bilet itdiyinə görə etibarsız sayılır.

Baş redaktor
H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız:
Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,
Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "EKSPRESS" mətbəəsində çap olunmuşdur.
Dizayn Fərhad Ağayevin,
fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 750 Sifariş №27
Bir nömrənin qiyməti: 40 qəpik.